# MİLYARDLIQ HƏDƏFLƏRƏ GEDƏN YOL



İlk rübdə qeyri-neft ixracı 11,7% artım nümayiş etdirib. Bu dinamika iqtisadi şaxələndirmə strategiyasının uğuru kimi qiymətləndirilir.

Xüsusilə yeyinti məhsulları üzrə ixracın 25,1% (281 mln. dollar), aqrar və aqrar-sənaye məhsullarının birgə ixracının isə 26,8% (303,7 mln. dollar) artması, qeyri-enerji sektorunun iqtisadiyyatdakı hərəkətverici rolunu yenidən gündəmə gətirib. Qlobal gərginliklərin və regional münaqişələrin artdığı bir şəraitdə bu artım tempini ilin sonuna qədər qoruyub saxlamaq mümkündürmü?

SƏHİFƏ 4-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

18 APREL ŞƏNBƏ 2026 № 14 (4265) Qiyməti - 60 qəpik www.kaspi.az





## "DİGƏRLƏRİ BİZİM ÜÇÜN GÜNDƏM YARATMAMALIDIR"

Regionda təkcə ikitərəfli deyil, üç və çoxtərəfli əməkdaşlıq fayda verə bilər. Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

SƏHİFƏ 2-də

## GİZLİ, YOXSA RAZILAŞDIRILMIŞ NƏZARƏT?



Şəxsi sərhədlər və uşağı qorumaq cəmiyyətdə balansı ən çətin qurulan mövzulardan biridir. Hər yaş dövrünün özünəməxsus şəxsi sərhəd anlayışı var. Ekspertlər bu məsələdə valideynlərin diqqətli olmasını vacib sayırlar.

SƏHİFƏ 7-də



## SÖHBƏT HALALLIQDAN GEDİRSƏ...

Yeni dövlət standartı halal turizmin inkişafına hesablanıb. Mütəxəssislər hesab edirlər ki, halal turizm dünya turizmində ən sürətlə böyüyən seqmentlərdəndir və böyük iqtisadi potensiala malikdir.

SƏHİFƏ 15-də

# DİPLOMATİYANIN ÜRƏYİ ANTALYADA DÖYÜNÜR





Forumda 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 dövlət və hökumət başçısının müavini, 39-u xarici işlər naziri olmaqla 50-dən artıq nazir, həmçinin 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla, ümumilikdə 500-dən çox şəxs iştirak edir.

**FORUMUN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB**

5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər. Tədbirdə Türkiyənin xarici işlər naziri Hakan Fidan və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış ediblər.

**ƏRDOĞAN VƏ ŞAHBAZ ŞƏRİFLƏ GÖRÜŞ**

Dövlət başçısı səfər çərçivəsində bir sıra ikitərəfli görüşlər də keçirib. Antalyada Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü keçirilib. Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə də bir araya gəlib.

SƏHİFƏ 2-də

"Atam ümumilikdə, 600-700 mahnı bəstələmişdi"

# "ATAM MƏNİM BİRİNCİ MÜƏLLİMİM OLUB"



Görkəmli bəstəkar Ramiz Mirişli 80 illik yubileyində son müsahibələrindən birini "Kaspi"yə verdi. Bir il sonra isə - 81 yaşında dünyasını dəyişdi. Sevimli bəstəkarın vəfatından 11 il keçəndən sonra oğlu Nazim Mirişli "Kaspi"nin "Doğmalar" rubrikasına atası ilə bağlı xatirələrini danışdı: "Qardaşım Aqil üçüncü sinfin əvvəlində "mən daha musiqiyə getməyəcəm" deyə inad göstərdi. Atam səhəri gün onu məktəbdən çıxardı..."

SƏHİFƏ 8-9-da



## QAYIDIŞ QARŞISINDAKI ƏN BÖYÜK MANEƏ

Azərbaycan ərazisi dünyada minalarla çirkləndirilmiş dövlətlərin ilk onluğunda yer alır. Bu fakt hazırda mina təhlükəsinin miqyasının nə dərəcədə böyük olduğunu aydın təsəvvür etməyə imkan verir.

SƏHİFƏ 3-də

## ELEKTROMOBİLLƏR YAĞIŞ SINAĞINDAN ÇIXA BİLDİMİ?





Yağışlardan sonra avtoservislərdə müşahidə olunan sıxlıq elektromobillərin istismar qaydalarındakı boşluqları üzə çıxarıb. Xüsusilə Çin istehsalı olan bəzi modellərdə izolyasiya qüsurlarının olduğu bildirilir.

SƏHİFƏ 11-də



## FERMERLƏRİN SEÇİMİ DƏYİŞİR

Ölkə fermerlərinin qarğıdalı əkininə marağı artıb. Ekspertlər bunu qarğıdalının daha rentabelli və gəlirli olması, həm də bu fəaliyyətin dövlət tərəfindən subsidiyalaşdırılması ilə əlaqələndirirlər.

SƏHİFƏ 13-də



Kürdəmir stansiyası istifadəyə verildi

SƏHİFƏ 10-da



Son beş il ərzindəki səkkizinci seçki

SƏHİFƏ 5-də



Güclü yağışların səbəbi müharibədirmi?

SƏHİFƏ 6-da



Qızıl bazarında saxtakarlıq riski

SƏHİFƏ 12-də



Həyəcan pik həddə

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## “Digərləri bizim üçün gündəm yaratmamalıdır”

“Regionda təkcə ikitərəfli deyil, üç və çoxtərəfli əməkdaşlıq fayda verə bilər”. “Report” xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən “Dəyişən dünyada regional sahibliyin rolu” mövzusunda panel sessiyada deyib. O, Azərbaycanın bölgədə ölkələrin öz nizamını qurmalı olduğuna tərəfdar çıxdığını deyib. Ermənistan və Azərbaycan arasında münaqişə haqda danışan H.Hacıyev qeyd edib ki, 30 il ərzində rəsmi Bakıya müxtəlif tərəflərin həll variantları diktə olunurdu: “Bölgədə liderliyi öz üzərinə götürəndə və öz regionuna sahib çıxanda, insan düzgün maraqlarını və doğru həll yollarını tapa bilir. Digərləri bizim üçün gündəm yaratmamalıdır. Ortaq məsuliyyətlər var. Bölgəmizdə çoxlu qardaş ölkələr var. İnteqrasiya mütləq olmalıdır”.

H.Hacıyev əlavə edib ki, ikitərəfli münasibətlər bölgədə əsas yer tutsa da, üç və çoxtərəfli əməkdaşlıq fayda verə bilər: “Türkiyə və Azərbaycan arasında bu münasibətlər önəmli yerdədir. Azərbaycan-İran, Türkiyə-Azərbaycan-Gürcüstan, Türkiyə-Azərbaycan-İran münasibətlərini də bura daxil edə bilərik”.

H.Hacıyev qeyd edib ki, Azərbaycan Xəzər dənizində əldə edəcəyi hidrokarbon enerji imkanlarını bütün regionun faydasına yönəltmək niyyətindədir. Onun sözlərinə görə, bu, həm Türkiyənin, həm də Azərbaycanın, həm də region ölkələrinin maraqlarına xidmət etmiş olunacaq: “Hətta belə təşəbbüslərlə regionlararası rifahı da təmin edə bilirik”.

# DİPLOMATİYANIN ÜRƏYİ ANTALYADA DÖYÜNÜR

**Builki forumda 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 dövlət və hökumət başçısının müavini, 39-u xarici işlər naziri olmaqla 50-dən artıq nazir, həmçinin 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla, ümumilikdə 500-dən çox yüksəksəviyyəli şəxs iştirak edir.**



Türkiyənin Antalya şəhərində 5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər. Tədbirdə Türkiyənin xarici işlər naziri Hakan Fidan və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış ediblər.

Qeyd edək ki, builki forumda 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 dövlət və hökumət başçısının müavini, 39-u xarici işlər naziri olmaqla 50-dən artıq nazir, həmçinin 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla, ümumilikdə 500-dən çox yüksəksəviyyəli şəxs iştirak edir. Forum çərçivəsində liderlərin panelləri də daxil olmaqla, 40-dan çox tədbir və sessiyanın keçirilməsi nəzərdə tutulur.

### RƏCƏB TAYYİB ƏRDOĞAN VƏ ŞAHBAZ ŞƏRİFLƏ GÖRÜŞ

Dövlət başçısı səfər çərçivəsində bir sıra ikitərəfli görüşlər də keçirib.

Antalyada Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü keçirilib.

Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə də bir araya gəlib.



Antalyada Prezident İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə də görüşü olub.

Söhbət zamanı Prezident İlham Əliyevlə Əhməd Əl Şaraanın ötən il Azərbaycana səfəri zamanı, həmçinin 4-cü Antalya Diplomatiya Forumu çərçivəsində görüşləri məmnunluqla xatırlanıb. Suriyada baş vermiş dəyişikliklərdən sonra ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı konkret addımların atıldığı vurğulanıb.

Enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunularaq, bu xüsusda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçirilməsinin əhəmiyyəti və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verməklə, ümumilikdə bu ölkənin inkişafında önəmi qeyd olunub.

Əhməd Əl Şaraa Azərbaycanın Suriyaya göstərdiyi dəstəyə görə dövlətimizin başçısına bir daha minnətdarlıq edib. Görüşdə ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb, əlaqələrimizin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların roluna toxunulub.

Söhbət zamanı bölgədə yaranmış gərginlikdən narahatlıq ifadə olunub, münaqişənin diplomatik yolla həll edilməsinin vacibliyi vurğulanıb. Prezident İlham Əliyev Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət edib.

## Azərbaycanın Moldovaya dəstəyi yüksək qiymətləndirilib

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 17-də Antalyada Moldova Prezidenti Maya Sandu ilə də görüşüb.

Söhbət zamanı dövlət başçısı ilə Maya Sandunun Azərbaycanda və Moldovada, həmçinin beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşlər məmnunluqla xatırlanıb. Azərbaycan-Moldova münasibətlərinin perspektivləri müzakirə olunub, əlaqələrin inkişaf etdiyi vurğulanıb, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından roluna toxunulub. Ölkələr arasında enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulanıb. Moldovanın xüsusilə enerjiyə ehtiyac duyduğu zamanda Azərbaycan tərəfindən nümayiş olunan dəstək bir daha yüksək qiymətləndirilib.

Maya Sandu vurğulayıb ki, Moldovada yaşayan Azərbaycan icması ictimai-siyasi həyatda fəal iştirak etməklə bu ölkənin inkişafına öz töhfəsini verir. Görüşdə dövlət başçıları qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## “Ölkəmiz həmişə Şimali Kiprin yanındadır”

Antalyada Prezident İlham Əliyev Şimali Kiprin Prezidenti Tufan Erhürmanla da bir araya gəlib. Dövlət başçısı Tufan Erhürmana Prezident seçilməsi münasibətilə təbriklərini çatdırıb. Tufan Erhürman təbriklərə görə minnətdarlığını bildirib. Söhbət zamanı Azərbaycanın Şimali Kiprə göstərdiyi daimi dəstəyə toxunulub.

Prezident Tufan Erhürman buna görə dövlət başçısına təşəkkür edib. Azərbaycan Prezidenti ölkəmizin həmişə Şimali Kiprin yanında olduğunu deyərək, göstərilən dəstəyin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.



Söhbət zamanı bu ilin aprelində Azərbaycan Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi və Şimali Kipr Məclisinin dostluq qrupları üzvlərinin Bakıda keçirilmiş 3-cü iclasının əhəmiyyəti qeyd edilib. Görüşdə Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasının önəmi vurğulanıb, həmçinin bir sıra sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparılıb.



# QAYIDIŞ QARŞISINDAKI ən böyük maneə

Azərbaycan ərazisi minalarla çirkləndirilmiş dövlətlərin ilk onluğunda yer alır. Bu fakt hazırda mina təhlükəsinin miqyasının nə dərəcədə böyük olduğunu aydın təsəvvür etməyə imkan verir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

İşğaldan azad olunmuş ərazilərdə mina terroru can almaqda davam edir. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı aprelin 14-də Füzuli rayonunda baş verən mina hadisəsində həlak olub. Hadisə rayonun Aşağı Əbdürrəhmanlı kəndi ərazisində baş verib. Agentliyin əməkdaşı 1995-ci il təvəllüdlü Mətili Muğan Rəfayıl oğlu xidməti vəzifəsini yerinə yetirərkən tank əleyhinə mina partlayışında həlak olub. Qeyd edək ki, bu hadisədə nəzərə alınmaqla İkinci Qarabağ müharibəsindən sonra ümumilikdə, 422 mina hadisəsi baş verib ki, nəticədə 73 nəfər həlak olub, 349 nəfər xəsarət alıb.

Məlum hadisə bir daha göstərdi ki, azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri, qayıdış prosesi ilə bağlı atılan addımlar nə dərəcədə çətin və məsuliyyətli şərtlər altında həyata keçirilir. Bu ərazilərdə tək bərpa işləri aparılmır, həm də işğalın nəticələrinin aradan qaldırılması, təhlükəsiz qayıdışın təmini üçün mina təhdidi ortadan qaldırılır. Bir fakt xüsusi qeyd edilməlidir ki, postmünaqişə dövründə hər bir ölkə üçün əsas çağırışlardan biri olan mina terrorunun zərərsizləşdirilməsi güclü beynəlxalq dəstək və yardım tələb edir.

### BEYNƏLXALQ DƏSTƏK ÇAĞIRIŞI

Son hadisədən sonra Azərbaycan Xarici İşlər Nazirliyinin müvafiq bəyanatı da bu amilə vurğu edir. "Minatəmizləmə işlərinə daha çox geniş beynəlxalq dəstəyin göstərilməsinə təcili ehtiyac var", - deyə XİN-in bəyanatında bildirilir: "Bu faciə minaların davam edən insan itkisini və azad edilmiş əraziləri təhlükəsiz etmək üçün çalışan insanların hər gün üzləşdiyi təhlükələri kəskin şəkildə xatırladır".

İşğaldan azad edilmiş ərazilərin bərpası, qayıdış prosesinin uğurla reallaşdırılması qarşısında ən böyük maneənin çirklənmiş ərazilər olması faktı Prezident İlham Əliyevin Litvanın baş naziri İnqa Ruqiniene ilə görüşündə də xüsusi vurğulanıb. Dövlət başçısı bildirib ki, işğaldan azad edilmiş ərazilərdə mina problemi mövcuddur ki, bu da bərpa və quruculuq işlərinin aparılmasını ləngidir.



Fotolar: Sabir Məmmədov/Global Photostock

## "3 400-DƏN ÇOX VƏTƏNDAŞ MİNALARIN QURBANI OLUB"

Ölkəmizin üzləşdiyi mina təhlükəsi dünya mətbuatının da diqqətindədir. Bugünlərdə İordaniyanın "Ad-Dustour" gündəlik qəzetində "Çirklənmədən bərpaya: Azərbaycan minatəmizləmə üzrə daha qətiyyətli qlobal tədbirlərə çağırır" başlığı ilə dərc olunmuş məqalədə də vurğulanır ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan minalardan və partlamamış hərbi sursatlardan ən çox zərər çəkmiş ölkələr sırasındadır. "Onun ərazisinin 13%-dən çoxu, xüsusən də İkinci Qarabağ müharibəsindən sonra azad edilmiş rayonlar minalarla və müharibənin partlayıcı qalıqları ilə çirklənib. Son üç onillikdə ölkənin 3 400-dən çox vətəndaşı minaların qurbanı olub", - məqalədə vurğulanıb.

Müəllif, həmçinin diqqəti ona cəlb edir ki, birbaşa insan itkilərindən başqa, minalarla çirklənmə bərpa və inkişaf üçün ciddi maneə yaradır: "Münbit torpaqların geniş sahələri istifadə üçün yararsız olaraq qalır, infrastruktur layihələri ləngiyir və bütöv icmalar öz evlərinə qayıtmaq imkanından məhrumdur. Azərbaycan üçün keçmiş məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli qayıdışı birbaşa minatəmizləmə əməliyyatlarının sürətindən və səmərəliliyindən asılıdır".

Qeyd olunub ki, problemin miqyası davamlı beynəlxalq dəstək tələb edir.

## TƏK İQTİSADİ DİRÇƏLİŞ YOX, HƏM DƏ SOSİAL DƏSTƏK

Azərbaycan ölkə rəhbərliyinin iradəsi ilə bütün gücünü və imkanlarını səfərbər edərək mina terrorunun qarşısını almaq, ləyaqətli və təhlükəsiz geri dönüşü təmin etmək üçün zəruri addımlar atmaqdadır. Bu proses tək minaların təmizlənməsini yox, həm də bu təhlükəli işi həyata keçirən əməkdaşların sosial təminatını da əhatə edir. Prezident İlham Əliyev tərəfindən minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi ilə bağlı Fərman imzalanıb. Aylıq təqaüd məbləği 700 manat müəyyən olunub. Fərmanı mütərəqqi edən məqamlardan biri də onun geriyə də şamil olunmasıdır. Xatırladaq ki, qanunvericilikdə hüquqi aktlar adətən geriyə şamil olunmur. Lakin bu Fərmanda xüsusi olaraq qeyd edilib ki, Prezidentin təqaüdü bu Fərman qüvvəyə mindiyi tarixədək minatəmizləmə fəaliyyəti zamanı baş vermiş bədbəxt hadisələr nəticəsində həlak olan və ya aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinə də şamil edilir.

### NƏ QƏDƏR ƏRAZİ MİNALARDAN TƏMİZLƏNİB?

Qeyd edək ki, 2025-ci ildə 69.2 min hektar, ümumilikdə isə 2020-ci ildən sonrakı dövrdə 264581 hektara yaxın ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. Keçən il Azərbaycanda minatəmizləmə əməliyyatı ən çox Cəbrayılda (9110,4 hektar) icra olunub. 2025-ci ildə həyata keçirilmiş minatəmizləmə əməliyyatlarının 8718,6 hektarı Laçın, 8526,2-si Füzuli, 8203,6-sı Xocavənd, 7893,3-ü Ağdərə, 7672,1-i Ağdam, 4995,7-si Xocalı, 4063,4-ü Zəngilan, 3514,8-si Qubadlı, 3008,2-si Kəlbəcər, 856,3-ü Şuşa rayonlarının, 360,8-i Xankəndi şəhərinin, 12,8-i Tərtər, 2269,5-i isə digər rayonların ərazisində icra edilib.

Bu il azad olunan torpaqlarda 65 min hektardan artıq ərazinin minalardan təmizlənməsi planlaşdırılır.

# MİLYARDLIQ HƏDƏFLƏRƏ GEDƏN YOL



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**2026-cı ilin ilk rübündə Azərbaycanın qeyri-neft ixracı 862 milyon dollara çataraq 11,7% artım nümayiş etdirib. Bu dinamika iqtisadi şaxələndirmə strategiyasının uğuru kimi qiymətləndirilir.**

Azərbaycanın iqtisadi şaxələndirmə strategiyası çərçivəsində qeyri-neft sektorunun ixrac potensialının artırılması prioritet istiqamət kimi qalmaqdadır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin son hesabatına əsasən, 2026-cı ilin yanvar-mart aylarında ölkənin qeyri-neft ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,7% artaraq 862 milyon ABŞ dollarına çatıb. Xüsusilə yeyinti məhsulları üzrə ixracın 25,1% (281 mln. dollar), aqrar və aqrar-sənaye məhsullarının birgə ixracının isə 26,8% (303,7 mln. dollar) artması, qeyri-enerji sektorunun iqtisadiyyatdakı hərəkətverici rolunu yenidən gündəmə gətirib. Qlobal gərginliklərin və regional münaqişələrin artdığı bir şəraitdə bu artım tempini ilin sonuna qədər qoruyub saxlamaq mümkündürmü?

### "DAXİLİ İSTEHSALIN KEYFİYYƏT STANDARTLARI YÜKSƏLDİLMƏLİDİR"

Millət vəkili Vüqar Bayramovun sözlərinə görə, Azərbaycan iqtisadiyyatının müasir inkişaf mərhələsi neft amilindən asılılığın minimuma endirilməsi və qeyri-neft sektorunun ixrac potensialının maksimallaşdırılması üzərində qurulub. Bu gün qeyri-neft ixracının artırılması sadəcə iqtisadi göstərici deyil, həm də ölkənin milli təhlükəsizliyi və iqtisadi suverenliyinin əsas prioritetlərindən biri hesab olunur: "İqtisadi diversifikasiya yalnız Ümumi Daxili Məhsulun (ÜDM) strukturunda və dövlət büdcəsinin gəlirlərində deyil, eyni zamanda ümumi ixrac portfelində qeyri-enerji məhsullarının payının kəskin şəkildə artırılmasını zəruri edir. Azərbaycanda qeyri-neft sektorunun ixrac imkanlarının genişləndirilməsi ilə bağlı dövlət səviyyəsində bəlli hədəflər və yol xəritələri mövcuddur. Bu istiqamətdə həyata keçirilən islahatlar iki əsas sütun üzərində dayanır: yerli sahibkarlığın stimullaşdırılması və xarici bazarlara çıxış mexanizmlərinin sadələşdirilməsi. Xüsusilə "Made in Azerbaijan" brendinin dünyada tanıdılması, ixrac təşviqi mexanizmlərinin tətbiqi və aqrar-sənaye komplekslərinin müasirləşdirilməsi qeyri-neft ixracının dinamikasına birbaşa təsir göstərir. Lakin bu artım tempini uzunmüddətli perspektivdə qorumaq üçün həm daxili istehsalın keyfiyyət standartları yüksəldilməli, həm də qlobal iqtisadi konyunkturanın gətirdiyi risklər düzgün qiymətləndirilməlidir".

## YENİ BAZARLARA İNTEQRASİYA ÜÇÜN ƏN MÜHÜM ŞƏRT

V.Bayramov bildirdi ki, müasir dünyada artan qlobal qeyri-müəyyənlik və regionumuzda müşahidə olunan gərginliklər iqtisadiyyatın bütün sahələrinə, o cümlədən ixrac proseslərinə dolaylı təsirlər göstərir. Lakin Azərbaycanın enerjidən kənar istehsal etdiyi məhsulların ixrac coğrafiyasını analiz etdikdə son regional təhdidlər ölkəmizin qeyri-neft ixracına hələ ki birbaşa və sarsıdıcı təsir göstərməyib: "Bunun əsas səbəbi ixracın təxminən yarısının Rusiya və Türkiyə kimi ənənəvi və stabil tərəfdaşların payına düşməsidir. Buna baxmayaraq, coğrafi fokusun məhdudluğu potensial riskləri də özü ilə gətirir. Məsələn, Körfəz ölkələri Azərbaycanın qeyri-neft məhsulları, xüsusən də kənd təsərrüfatı və qida sənayesi üçün yüksək prioritet kəsb edən bazarlardır. Regionda baş verən hər hansı irimiqyaslı münaqişə bu yeni və perspektivli bazarlara çıxış imkanlarını çətinləşdirə bilər. Azərbaycanın regionda stabilliyin tərəfdarı olması sadəcə siyasi bəyanat deyil, həm də ixracın təhlükəsizliyini təmin edən iqtisadi zərurətdir. Stabillik yeni bazarlara inteqrasiya üçün ən mühüm şərtdir".

### "HƏR 100 DOLLARLIQ GƏLİRİN 50 DOLLARI CƏMİ İKİ ÖLKƏDƏN FORMALAŞIR"

Deputatın fikrincə, Azərbaycanın qeyri-neft sektorunda hər 100 dollarlıq gəlirinin 50 dolları iki ölkədən formalaşır. Bu, "bazarların diversifikasiyası" məsələsini aktuallaşdırır: "Bir və ya iki bazardan asılılıq həmin ölkələrdə baş verə biləcək devalvasiya, iqtisadi böhran və ya siyasi dəyişikliklər qarşısında yerli ixracatçını müdafiəsiz qoyur. Diversifikasiya yalnız coğrafi genişlənmə demək deyil, həm də məhsul çeşidinin və keyfiyyətinin artırılmasıdır. Uzunmüddətli dövrdə qeyri-neft ixracındakı artım tempinin qorunub saxlanması üçün stabil və proqnozlaşdırıla bilən bazarlara ehtiyac var. Bu nöqtədə Avropa İttifaqı ölkələri ilə iqtisadi əlaqələrin dərinləşməsi böyük əhəmiyyət kəsb edir".

V.Bayramov qeyd etdi ki, qeyri-neft ixracının dayanıqlığını möhkəmləndirmək üçün dövlət və özəl sektorun sinxron fəaliyyəti vacibdir. Yeni bazarlara çıxış üçün logistik xərclərin optimallaşdırılması, beynəlxalq sertifikatlaşdırma prosesinin sürətləndirilməsi və ixracatçı şirkətlərə rəqəmsal marketinq dəstəyinin verilməsi önümüzdəki dövrün əsas vəzifələridir: "Yalnız bu halda biz qeyri-neft ixracında əldə olunan müsbət dinamikanı ilin sonuna və daha uzaq perspektivə daşıya bilərik".

## "ARTIM RƏQƏMLƏRİ 50-60%-LƏRLƏ İFADƏ OLUNMALIDIR"

İqtisadçı-ekspert Xalid Kərimli isə düşünür ki, mövcud artım kifayət deyil: "Azərbaycanın iqtisadi gündəmində qeyri-neft ixracı ilə bağlı səslənən "rekord artım" və "müsbət dinamika" ifadələri artıq adiləşib. Azərbaycanın qeyri-neft ixracının illik həcmi 3,6 milyard dollar civarındadır. Bu rəqəm, ölkənin iqtisadi potensialı və neft-qaz sektorundan gələn milyardlarla müqayisədə həddən artıq kiçikdir. İxracın artım səbəblərini araşdırarkən kəmiyyət deyil, qiymət faktorunun ön plana çıxdığını görürük. Regional və qlobal gərginliklər dünyada inflyasiyanı tətikləyir. Biz xaricdən aldığımız malların bahalaşmasından şikayət etdiyimiz kimi, ixrac etdiyimiz məhsulların da dəyəri dünya bazarındakı konyunktura uyğun olaraq artır. Əslində isə bu, yerli istehsalın keyfiyyət sıçrayışı deyil, qlobal bazarın diktə etdiyi şərtlərdir".

X.Kərimli bildirdi ki, əgər biz qeyri-neft ixracını həqiqətən iqtisadiyyatın lokomotivinə çevirmək istəyiriksə, artım rəqəmləri 50-60%-lərlə ifadə olunmalıdır: "İllik ixrac həcmi 10-15 milyard dollara çatmadıqca, qeyri-neft sektorunun ölkə taleyindəki rolu simvolik olaraq qalacaq. Bu tempi ilin sonuna qədər qorumaq, böyük ehtimalla, mümkün olacaq. Lakin bu, real inkişaf deyil, sadəcə mövcud kiçik bazanın inersiya ilə hərəkətidir".



Vüqar Bayramov

Xalid Kərimli

# SON BEŞ İL ƏRZİNDƏKİ SƏKKİZİNCİ SEÇKİ

Bolqarıstanda keçmiş prezident Rumen Radev dövləti real olaraq idarə etmək üçün baş nazir olmaq istəyir. O, bu ilin yanvarında vəzifəsini vaxtından əvvəl tərk edib və "Proqressiv Bolqarıstan" partiyası ilə seçkiyə qoşulmaq qərarı verib.



AZƏR NURİYEV




Macarıstanda keçirilən parlament seçkilərində Viktor Orbanın məğlubiyyətindən sonra indi də diqqətlər Bolqarıstana yönəlib. Aprelin 19-da ölkə son beş il ərzində səkkizinci seçkiyə gedəcək. Seçkilərdə keçmiş prezident Rumen Radevin hökumətə rəhbərlik edib-etməyəcəyi məsələsi həll olunacaq. Keçmiş prezident bu ilin yanvarında vəzifəsini vaxtından əvvəl tərk edib və "Proqressiv Bolqarıstan" partiyası ilə seçkiyə qoşulmaq qərarı verib. Bolqarıstan parlament respublikasıdır və Radevin 2017-ci ildən tutduğu prezident vəzifəsi nominal olub. Dövləti həqiqətən idarə etmək üçün onun baş nazir olması lazımdır və o da buna can atır. Reytinqi yüksək olan Radevin seçkiqabağı proqramı korrupsiyaya qarşı mübarizə, sosial ədalət və həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluğun azaldılması, dövlət institutlarının gücləndirilməsi vədləri üzərində cəmlənib. Eyni zamanda o, xarici siyasət məsələlərində ehtiyatlı mövqe tutur.

Seçkilərdə Radevlə yanaşı, sağ-mərkəzçi partiyanın lideri Boyko Borisov da iştirak edir.

Seçkilərdə 3,1 milyondan çox seçicinin iştirakı gözlənilir. Deputat mandatları uğrunda 14 partiya və 10 koalisiya mübarizə aparır.

### "BOLQARISTANIN ORBANI"

Qərb analitikləri hesab edirlər ki, "Bolqarıstanın Orbanı" Aİ-nin birliyi üçün macarıstanlı həmkarı qədər təhlükədir". Hesab edilir ki, Radevin başçılıq etdiyi partiya qələbə qazanarsa, o zaman Bolqarıstanın xarici siyasi kursu çox güman ki, dəyişəcək: Sofiya böyük ehtimalla Brüssel üçün Budapeşt qədər "narahat" yer olacaq.

## RUSİYA HƏR VƏCHLƏ RADEVƏ DƏSTƏK VERİR

Ölkədə seçkiqabağı vəziyyət gərgindir. Rusiya hər vəchlə Radevə dəstək verir, onun qələbə qazanmasına çalışır. Nəticədə, Bolqarıstan hakimiyyəti Rusiyanın mümkün müdaxiləsinin qarşısının alınmasında dəstək göstərilməsi üçün Aİ-yə müraciət edib. Sofiya xarici aktorların sosial şəbəkələr və təbliğat saytları vasitəsilə ictimai rəylə manipulyasiya kampaniyalarının aşkar edilməsi və dayandırılması üçün Avropa Xarici Fəaliyyət Xidmətindən yardım istəyib. Bolqarıstan Rəqəmsal Xidmətlər Qanunu çərçivəsində dezinformasiyaya qarşı mübarizə üçün Sürətli Reaksiya Sisteminin aktivləşdirilməsini xahiş edib. Bu tədbir "Meta", "Google", "TikTok" və digər platformalarla əməkdaşlığa yönəlib. Ölkənin Xarici İşlər Nazirliyində xarici müdaxiləyə qarşı tədbirlərin əlaqələndirilməsi üçün müvəqqəti işçi qrupu yaradılıb. İşə araşdırmaçı jurnalist Xristo Qrozev də cəlb edilib. Hətta Bolqarıstan polisi parlament seçkilərində səs almaq üçün nəzərdə tutulan 500 min avronu müsadirə edib.



Rumen Radev

Son həftələr ərzində hakimiyyət orqanları seçicilərin rüşvətlə ələ alınması və səsvermə üçün məcburetmə ilə mübarizə üzrə ümumölkə kampaniyası çərçivəsində 200-dən çox insanı saxlayıb.

### ONUN TARAZLI SİYASƏTİ SEÇİCİLƏRİN XOŞUNA GƏLİR

2021-ci ildən Bolqarıstan siyasi sistemi dərin böhran vəziyyətindədir. Partiya spektrinin parçalanması və siyasətçilər arasındakı barışmaz ziddiyyətlər nəticəsində koalisiya hökumətlərini yaratmaq çox çətindir və onlar son dərəcə qeyri-sabitdir. Radev son illərdə Bolqarıstanı faktiki olaraq idarə edən texniki kabinetlər təyin edərək bundan istifadə edə bilib və öz mövqelərini möhkəmləndirib. Ölkə üçün çətin dövrdə onun tarazlı siyasəti seçicilərin xoşuna gəlir. Radevin populyarlıq reytinqləri digər siyasətçilərlə müqayisədə yüksəkdir (müxtəlif mənbələrə görə, hazırda 40–45%). O, prezident postuna iki dəfə seçilib və hər dəfə qələbəsi mübahisəsiz olub.



Boyko Borisov

## Aİ-NİN RUSİYAYA QARŞI SANKSİYALARINI MƏNASIZ HESAB EDİR

Maraqlıdır ki, 2021-ci ildə seçkiqabağı kampaniya zamanı Radev faktiki olaraq Krımı Rusiyaya məxsus hesab edib. Daim Rusiyanı "Bolqarıstan xalqının azadedicisi" adlandırıb, Aİ-nin Rusiyaya qarşı sanksiyalarının mənasız və səmərəsiz olduğunu bildirib. 2024-cü ilin mayında o, Kiyevin müharibədə qalib gələ bilməyəcəyini iddia edib və dəfələrlə Moskva ilə dialoqa qayıtmağın zəruriliyini vurğulayıb. Ukrayna münaqişəsinin diplomatik yolla həllini və Donald Trampın sülhyaratma təşəbbüslərini açıq şəkildə dəstəkləyib.

Radev bəyan edir ki, rəhbərlik etdiyi "Proqressiv Bolqarıstan" partiyası korrupsiyalı dövlət sisteminin sökülməsi barədə ictimai tələbə cavabdır.

### QALİB ÇƏTİN SEÇİM QARŞISINDA QALACAQ

Hazırda Radev özünün "Rusiyayönümlü istiqamətinə" işarə edə biləcək hər şeydən qaçır. Bəzi ekspertlərin fikrincə, bu, onun Brüsselə bağladığı ehtimal olunan sövdələşmə ilə izah olunmalıdır. Ehtimallara görə, Radev çalışır ki, Aİ onun seçkilərdə qələbəsinə mane olmasın. Çünki bir il əvvəl Aİ-nin Rumıniyada millətçi Kelin Corcekunun prezidentlik yarışından kənarlaşdırılması üçün atdığı addımlar yaddan çıxmayıb.

Keçmiş prezident seçkidə qalib gələrsə, koalisiya üçün ya avropayönümlü, ya da rusiyayönümlü qüvvələrlə anlaşmalı olacaq. Birincilərlə ittifaq Radevi Bolqarıstan ictimaiyyətinin gözündə nüfuzdan sala, ikincilərlə sövdələşmə isə Aİ ilə münasibətləri çətinləşdirə bilər.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# GÜCLÜ YAĞIŞLARIN SƏBƏBİ MÜHARİBƏDİRMİ?

Azərbaycanda müşahidə olunan güclü yağışların İran müharibəsinin nəticəsi kimi dəyərləndirilməsi iddiaları artıb. Ekspertlər bu fərziyyənin heç bir elmi əsasının olmadığını bildirsələr də, təsir ehtimalını da mümkün sayırlar.

SEVİNC ABBASOVA

Son günlərdə regionda baş verən hərbi gərginlik fonunda cəmiyyətdə yeni və mübahisəli bir fikir dolaşmağa başlayıb. İddialara görə, Azərbaycanda müşahidə olunan normadan artıq yağıntılar İranda həyata keçirilən hərbi əməliyyatların nəticəsidir. Eyni zamanda, bombardmanların, onun nəticəsində yaranan partlayışların, yanğınların atmosferə neqativ təsirləri ilə bağlı da fərziyyələr mövcuddur. Bu yanaşmalar ictimai maraq doğursa da, suallar açıq qalır: doğrudanmı hərbi əməliyyatlar hava və iqlimə təsir edəcək qədər güclü amildir, yoxsa burada sadəcə təsadüfi uyğunluqdan söhbət gedir?

### LOKAL DEYİL, GENİŞMİQYASLI DƏYİŞİKLİKLƏR

Həsən Əliyev adına Coğrafiya İnstitutunun Xəzər dənizinin hidrometeorologiyası şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Səid Səfərov hesab edir ki, iqlimdə müşahidə olunan dəyişiklikləri yalnız hərbi əməliyyatlarla əlaqələndirmək elmi baxımdan düzgün yanaşma deyil. Onun sözlərinə görə, eyni dövrdə oxşar intensiv yağıntıların Dağıstan ərazisində qeydə alınması, həmçinin daha əvvəl Nyu-York kimi coğrafi baxımdan tam fərqli bölgələrdə analoji hadisələrin baş verməsi göstərir ki, bu proseslər lokal deyil, daha genişmiqyaslı atmosfer dəyişikliklərinin nəticəsidir. Alim vurğulayır ki, bu cür hadisələri izah etmək üçün əsas diqqət qlobal atmosfer sirkulyasiyasına yönəldilməlidir. Belə ki, şimal yarımkürəsində, xüsusilə Arktika üzərində formalaşan güclü soyuq hava kütlələri normal şəraitdə müəyyən sabitliklə dövr edir və öz strukturunu qoruyur. Bu proses elmi ədəbiyyatda "hava burulğanı" kimi tanınan dinamik sistemlərlə izah olunur. Lakin müxtəlif səbəblərdən, məsələn, bloklayıcı antisiklonların yaranması zamanı bu sistemin hərəkət sürəti zəifləyir və nəticədə soyuq hava kütlələri öz sabitliyini itirərək parçalanır. Bu zaman həmin kütlələr ümumi atmosfer dövranına daxil olaraq fərqli coğrafiyalarda qəfil və gözlənilməz hava dəyişikliklərinə, o cümlədən intensiv yağıntılara səbəb olur. Məhz martın sonu - aprelin əvvəllərində müşahidə olunan hadisələrin də böyük ehtimalla bu mexanizmlə əlaqəli olduğu qeyd edilir.

S.Səfərov əlavə edir ki, hərbi əməliyyatlar zamanı istifadə olunan müəyyən texnogen vasitələrin atmosferə lokal təsiri tam istisna olunmasa da, bu təsirin genişmiqyaslı və uzunmüddətli iqlim dəyişiklikləri yaratmaq gücündə olması barədə elmi əsaslandırılmış faktlar mövcud deyil. Əksinə, son illərdə müşahidə olunan iqlim anomaliyaları daha çox qlobal xarakter daşıyır və müxtəlif təbii amillərin qarşılıqlı təsiri ilə formalaşır.



Foto: Firudin Səlimov/Global Photostock

## Süni yağıntı layihələri rütubət balansını pozur

Ekspertin diqqət çəkdiyi digər məqam isə bəzi ölkələrdə həyata keçirilən süni yağıntı layihələridir. Onun sözlərinə görə, xüsusilə Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələrdə tətbiq olunan bu texnologiyalar çərçivəsində atmosferə müxtəlif kimyəvi reagentlər buraxılır. Bu isə lokal səviyyədə rütubət balansına təsir göstərərək müəyyən dəyişikliklər yarada bilər. Lakin bu təsirlərin qlobal miqyasda hava sistemlərini köklü şəkildə dəyişməsi hələ də müzakirə mövzusudur.

S.Səfərovun fikrincə, baş verən hadisələrin müharibə ilə əlaqələndirilməsi daha çox zaman uyğunluğundan irəli gələn fərziyyədir. Onun dediyinə görə, oxşar hadisələr tarix boyu dəfələrlə baş verib, lakin əvvəlki dövrlərdə informasiya mübadiləsinin məhdud olması səbəbindən bu cür hadisələr geniş ictimaiyyətə çatmayıb. Müasir dövrdə isə qlobal informasiya axınının sürətlənməsi istənilən təbii hadisənin dərhal diqqət mərkəzinə düşməsinə və müxtəlif şərhlərlə müşayiət olunmasına səbəb olur.



Səid Səfərov



Əsgər Məmmədov



Rövşən Abbasov

## Gələcəkdə daha kəskin hava hadisələri istisna deyil

Bakı Dövlət Universiteti Coğrafiya fakültəsinin professoru Əsgər Məmmədov da yayılan iddiaları əsassız sayır. Professorun sözlərinə görə, hazırda dünya iqlim sistemi qlobal istiləşmə dövrünü yaşayır və bu prosesin nəticələri tam şəkildə hələ elmi ictimaiyyət tərəfindən də müəyyənləşdirilməyib. Bununla belə, artıq aydındır ki, iqlim sistemində ciddi dəyişikliklər baş verir və gələcəkdə daha kəskin hava hadisələrinin müşahidə olunması istisna edilmir.

Ə.Məmmədov onu da əlavə edir ki, iqlimdə baş verən proseslər müəyyən qanunauyğunluqlara əsaslanır və bu sistem müəyyən dərəcədə proqnozlaşdırıla bilər. Lakin qısa müddətli atmosfer hadisələrini lokal və ya təsadüfi xarici faktorlarla bağlamaq düzgün deyil. Onun fikrincə, atmosferdə baş verən dəyişikliklərin kökləri daha dərin və qlobal proseslərlə bağlıdır.

### YAĞINTILARIN İNTERVALI DƏYİŞİB

Ətraf mühit məsələləri üzrə ekspert Rövşən Abbasov da irəli sürülən fərziyyələrlə razılaşmır. Onun qənaətincə, sözügedən hərbi əməliyyatlar miqyas etibarilə o qədər böyük deyil ki, regional və ya sinoptik səviyyədə hava sistemlərinə təsir göstərə bilsin. Mütəxəssis qeyd edir ki, Azərbaycanda müşahidə olunan intensiv yağıntılar daha çox təbii iqlim dəyişkənliyi və uzunmüddətli meteoroloji qanunauyğunluqlarla izah olunmalıdır: "Hazırda müşahidə edilən yağışlar iqlim norması daxilində qiymətləndirilə bilər, lakin onların zaman və intensivlik baxımından paylanmasında ciddi dəyişikliklər müşahidə olunur. Yəni, uzun müddət ərzində düşməli olan yağıntıların qısa zaman intervalında, məsələn, bir neçə gün ərzində aylıq normanın bir neçə qatının düşməsi kimi hallar baş verir. Bu isə müasir iqlim dəyişmələrinin tipik göstəricilərindən biri kimi izah edilir".

Ekspert əlavə edir ki, belə ekstremal hava hadisələri yeni deyil və əvvəllər də oxşar proseslər müşahidə olunub. O, xüsusilə 1952, 1969 və 1992–1993-cü illəri xatırladaraq bildirir ki, həmin dövrlərdə də güclü yağışlar nəticəsində Kür çayı hövzəsində ciddi daşqınlar və sellər qeydə alınmışdı.

“UŞAĞIN SOSİAL HƏYATINA BALANSLI NƏZARƏT ŞƏXSİ HƏYATA MÜDAXİLƏ SAYILMIR”

# UŞAQLARA GİZLİ, YOXSA RAZILAŞDIRILMIŞ NƏZARƏT?



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Şəxsi sərhədlər və uşağı qorumaq cəmiyyətdə balansı ən çətin qurulan mövzulardan biridir. Hər yaş dövrünün özünəməxsus şəxsi sərhəd anlayışı var. Ekspertlər bu məsələdə valideynlərin diqqətli olmasını vacib sayırlar.**

“WhatsApp” uşaqlar üçün valideyn nəzarətli hesablar funksiyasını istifadəyə verib. Bu yenilik valideynlərə kiçik yaşlı uşaqların mesajlarını və sosial media davranışını izləmək imkanı yaradır. Valideyn uşağın kimlərlə ünsiyyət qurduğunu, hansı qruplara qoşulduğunu izləyir. Hətta məxfilik parametrlərini görə, naməlum nömrələrdən gələn mesaj sorğularını bloklaya bilər. Uşaq isə bu parametrləri dəyişə bilməz, bunun üçün PIN-kod tələb olunur. Bu funksiya təhlükəsizlik baxımından faydalıdır, lakin valideyn nəzarətinin uşaqların etimadına və psixoloji rahatlığına təsiri ilə bağlı fikir ayrılığı mövcuddur. Bəziləri hesab edir ki, valideynlər uşaqlarının yazışmalarını mütləq izləməlidir. Digərləri isə ehtiyatlı yanaşmanın vacibliyini vurğulayır və qeyd edirlər ki, həddindən artıq müdaxilə uşaqlarda qıcıq, etimad problemi yarada bilər.

### NƏZARƏT GİZLİ VƏ TOTALDIRSA...

“Indigo Support” Reabilitasiya və İntegrasiya Mərkəzinin meneceri və psixoloq Aysel Qafarova “Kaspi” qəzetinə açıqlamasında bildirir ki, 18 yaşa qədər uşağın sosial həyatına düzgün və balanslı şəkildə nəzarət onun şəxsi həyatına müdaxilə sayılmır. Əksinə, bu yanaşma uşağın sosial və ailə həyatının balansını qorumağa kömək edir: “Uşaq hələ formalaşma mərhələsindədir və rəqəmsal dünya real həyatdan daha sərt və nəzarətsizdir. Amma burada çox incə bir xətt var. Nəzarət gizli və totaldırsa, bəli, bu, artıq uşağın şəxsi sərhədlərinin pozulmasıdır. Əgər açıq, razılaşdırılmış və izah olunmuş şəkildədirsə, bu, hüquq pozuntusu yox, qoruyucu çərçivədir”.

### “NƏZARƏT EDƏRKƏN BALANSI QORUMAQ ÖNƏMLİDİR”

Psixoloq bildirir ki, hər sahədə olduğu kimi nəzarət edərkən də balansı qorumaq çox önəmlidir: “Nəzarət, diqqətdə saxlamaq şəklində həyata keçirildikdə, uşağın özünəinamını zədələmir və psixoloji rahatlığını pozmadan həm psixoloji, həm də fiziki təhlükəsizliyini təmin edir. Lakin nəzarət həddindən artıq olduqda, birbaşa və ya dolayı yolla uşağın psixoloji rahatlığına, özünəinamına təsir edən müdaxilələrə çevrilsə, bu, onun psixoloji sabitliyinə, həyəcanını, emosiyalarını idarə etməsinə mənfi təsir göstərir. Psixoloji rahatlıq yalnız güvən mühitində yarana bilər. “Mən daim izlənirəm” hissi hər zaman öz davranışlarını götür-qoy etməklə yanaşı, iki fərqli xarakterin eyni zamanda yaranmasına da səbəb ola bilər”.




## “Ən güclü nəzarət hər zaman sağlam ünsiyyət üzərində qurulur”

“Valideynlər uşaqların onlayn davranışını izləyərkən etimadı qorumaq üçün nə etməlidirlər” sualına həmsöhbətimiz fransız psixiatr Serge Tisseronun 3-6-9-12 yaş qaydalarına toxunaraq cavab verir: “Serge bildirir ki, 12 yaşa qədər uşağın sosial mediadan istifadəsi yalnız valideyn razılığı ilə və qısa müddət üçün mümkün olmalıdır. 12 yaşdan sonra uşaq ailə üzvləri ilə daha çox vaxt keçirməli, valideyn isə övladının etimadını pozmadan onunla rahat şəkildə fikir və hisslərini paylaşa bilməli, ona dəstək olmalıdır. Eyni zamanda, razılaşdırılmış qaydalar olmalıdır ki, hansı hallarda valideyn müdaxilə edə bilər, hansılarda edə bilməz”.


Aysel Qafarova

### “MƏQSƏD YALNIZ NƏZARƏTDƏ SAXLAMAQ DEYİL”

Psixoloq bildirir ki, uşağın sosial davranışına və özünü ifadəsinə sərt müdaxilə edilsə, bu, onun internetdə və sosial mediada məsuliyyətli davranmağı öyrənməsinə mane olar: “Əksinə, həm onu nəzarətdə saxlayıb, həm də dəstəkləyici davranışlarla övladımıza yanaşdıqda, özünə nəzarəti öyrədirik. Əsas məqsədimiz yalnız nəzarətdə saxlamaq deyil, nəzarətsiz də düzgün seçimlər edə biləcək şəkildə yetişdirməkdir. Bunun sadə yolu isə kiçik yaşlarda sıx nəzarət və az-az məsuliyyət, yaş artdıqca isə əksinə, az nəzarət və artan məsuliyyətdir”.

## “Uşaq hər zaman valideynin onun yanında olduğunu hiss etməlidir”

Psixoloq Günel Qurbanova hesab edir ki, kiçik yaşlı uşaqlar yalnız “WhatsApp” deyil, heç bir sosial platformanı sərbəst şəkildə istifadə etməməlidirlər: “Xüsusilə, yeniyetməlik dövründə uşaqlar onlara aid olmayan platformalar və təhlükəli mövzularla maraqlana bilərlər. Bu vəziyyətə düşən valideyn, mövzudan xəbərdar olduğunu uşağa aşkar etməməlidir. Mümkün qədər dostyana yanaşmalı, uşağa belə mesajlar verməlidir”.

### CƏMİYYƏTDƏ BALANSI ƏN ÇƏTİN QURULAN MÖVZU

Həmsöhbətimiz bildirir ki, şəxsi sərhədlər və uşağı qorumaq cəmiyyətdə balansı ən çətin qurulan mövzulardan biridir: “Hər yaş dövrünün özünəməxsus şəxsi sərhəd anlayışı var. Sadə bir misal: 6 yaşlı uşaq telefonda qorxulu videolar izləyirsə, onun istəyinə hörmətlə yanaşa bilməzsiniz. “Baxma” desəniz də, baxa bilər. Bu halda müdaxilə vacibdir, çünki azyaşlı dövrlərdə belə videolar ciddi psixoloji fəsadlara səbəb ola bilər. Eyni şey 16 yaşlı uşağa tətbiq olunsa, o, valideynə qarşı aqressiya göstərəcək və təhlükəli olduğunu izah etdiyiniz məzmunlara yenidən baxmağa çalışacaq. Hər yaş dövründə qoyulan qadağalar mümkün qədər dostluq çərçivəsində olmalıdır”.

### XARİCİ TƏCRÜBƏ NECƏDİR?

ABŞ və Avropa ölkələrində valideyn nəzarəti üçün “family link” tipli tətbiqlər geniş istifadə olunur. Məsələn, “2Google Family Link” valideynlərə uşağın tətbiqlərini izləmək, istifadəyə vaxt məhdudiyyəti qoymaq və təhlükəli məzmunları bloklamaq imkanı verir. İngiltərədə “Childnet International” təşkilatı uşaqların sosial mediada təhlükəsizliyini təmin etmək üçün valideynlərə yaşa uyğun nəzarət və ünsiyyət qaydaları təqdim edir.

ABŞ-də aparılan araşdırmalar göstərir ki, 13 yaşdan sonra uşaqlarla dostyana ünsiyyət və razılaşdırılmış qaydalarla nəzarət tətbiq edən valideynlərin övladları həm məsuliyyətli rəqəmsal davranış, həm də psixoloji stabillik baxımından daha uğurlu olur.


Günel Qurbanova

BƏSTƏKAR RAMİZ MİRİŞLİNİN OĞLU NAZİM MİRİŞLİ: “O GÜNDƏN MÜĞƏNNİLƏR “BİZİM ÜÇÜN MAHNI YAZ” DEYƏ ATAMDAN YAPIŞIBLAR”

# “ATAM MƏNİM BİRİNCİ MÜƏLLİMİM OLUB”



SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

> “Qardaşım Aqil üçüncü sinfin əvvəlində “mən daha musiqiyə getmə-yəcəm” deyə inad göstərdi. Atam səhəri gün onu məktəbdən çıxardı. O bilirdi ki, bu iş sevgisiz olmaz”.



Görkəmli bəstəkar Ramiz Mirişli 80 illik yubileyində son müsahibələrindən birini “Kaspi”yə verdi. Bir il sonra isə - 81 yaşında dünyasını dəyişdi. Sevimli bəstəkarın vəfatından 11 il keçəndən sonra oğlu Nazim Mirişli “Kaspi”nin “Doğmalar” rubrikasına atası ilə bağlı xatirələrini danışdı.

**“ATAMIN YOLUNU DAVAM ETDİRDİM”**

● **Nazim müəllim, Ramiz Mirişli ilə son müsahibəmdə dedi ki, iki oğlum Türkiyədə musiqiçi kimi çalışır. Siz sonradan Vətənə döndünüz?**

● Biz iki qardaş Türkiyədə universitetdə çalışırdıq. O zaman Erciyes Universitetinin rektoru Bakıya gələndə məni dəvət etmişdi. Aktyor-rejissor Cahangir Novruzov, rejissor Zaur Məhərrəmov, heykəltəraş Qorxmaz Sucəddinov, rəssam Rəhim Məmmədov fərqli sahələr üzrə işləməyə getdik. Qardaşım da getdi. Mən altı il çalışdım, sonra qayıtdım. Atam bir az darıxırdı. Valideynlərim yaşlanmışdı. Onlara qayğı lazım idi. Yaxşı ki, gəldim, onların yanında olmağım daha yaxşı idi.

● **Qayıdandan sonra atanızla bir yerdə işləməyə başladınız?**

● Mən qayıdanda Musiqi Akademiyasında bəstəkarlıq fakültəsinin müdiri Arif Məlikov idi. O bir gün mənə zəng vuraraq “kafedrada işləmək istəyirsən?”- deyə soruşdu. O vaxtdan indiyə qədər bəstəkarlıq kafedrasında işləyirəm. Atam başqa kafedrada işləyirdi. Milli Konservatoriyada isə əvəzedici kimi çalışıram.

● **Atanızın dərs verdiyi bir ali məktəbdə çalışmaq, onun gəzdiyi dəhlizlərdə gəzmək, o pillələri qalxmaq, həmin auditoriyalarda dərs demək necə bir hissdir? Xüsusən də zahirən ona çox oxşayırsınız...**

● Hər şey tələbəlikdən başlayır. Mən tələbə olanda onun sinfinə çox nadir hallarda, ehtiyac olanda gələrdim. Düzü, çəkinərdim. O məni görüncə əlbəttə, çox sevinərdi. Ancaq mən ailə mühitinin auditoriyaya sirayət etməsini istəməzdim. Ona görə ciddi-ciddi gedib gələrdim. Əlbəttə, oxuyanda çalışardım ki, atama söz gəlməsin. Təbii ki, bu, musiqi ilə bağlı olmayacaqdı. Çünki atam məni musiqidən hərtərəfli yoxlayıb bəstəkarlığa daxil olmağıma icazə vermişdi. Konservatoriyanı bitirəndən sonra Asəf Zeynallı adına kollecdə işlədim. Atam Naxçıvanda musiqi məktəbini bitirib Asəf Zeynallıda oxudu, mən isə o məktəbdə işlədim. 90-cı illərdə Şuşa Konservatoriyası Bakıya köçdü. Rektor Süleyman Ələsgərov məni təsadüfən görəndə “gəl, bizdə işlə”, - deyə təklif etdi. Bu mənada atamın yolunu davam etdirdim.

● **Ramiz müəllim sizin yaradıcılığınıza necə yanaşırdı?**

● Mən konservatoriyaya hazırlaşanda pianoçu idim. Bəstəkarlığa daxil olmaq üçün əsərlər bəstələmək lazım idi. İmtahana gedəndə onların əsasında qiymətləndirirdilər. Mən də özüm bəstələyirdim. Atam mənim birinci müəllimim olub. Atam və anam həm də ilk dinləyicilərim idilər. Anamın bəstəkarı qiymətləndirmək üçün böyük təcrübəsi vardı. Çünki artıq evdə birini görmüşdü. Atam yüngül əsərlərini – kino, teatr musiqisini, mahnılarını ilk dəfə anam üçün ifa edərdi. Anam musiqiçi deyildi, pedaqoji təhsilli idi, amma yüksək musiqi duyumu vardı. Atam yeni əsərinə veriləcək reaksiyanı məhz anamın zövqü ilə müəyyən edirdi. Mən və əkiz qardaşlarım da musiqi məktəbinə gedirdik. Anam bizi məktəbə aparar, dərslərimizdə otururdu. Biz dərs hazırlayanda bəzən qapını açar, “o yeri düz çalmadın, müəllimə belə demişdi” deyərdi. Qardaşım Aqil üçüncü sinfin əvvəlində “mən daha musiqiyə getməyəcəm” deyə inad göstərdi. Atam səhəri gün onu məktəbdən çıxardı. O bilirdi ki, bu iş sevgisiz olmaz. Qardaşım rəssamlıqla məşğul oldu, rejissorluğu bitirdi. Yusif isə Arif Məlikovun sinfini qurtardı. Hazırda Türkiyədə çalışır.

**“CÖVDƏT MÜƏLLİMDƏ OXUYARKƏN...”**

● **Siz də, atanız da görkəmli bəstəkar Cövdət Hacıyevin sinfini bitirmisiniz. Sənətinizin sirlərini daha çox hansından öyrənmisiniz - atanızdan, ya Cövdət müəllimdən?**

● Təbii ki, Cövdət Hacıyevdən. Konservatoriyaya daxil olan tələbələrə ixtiyar verilir ki, müəllimlərini seçsinlər. Orada tələbə kimi seçirsə, qanun sayılardı. Bu, ixtisasa görə idi. O zaman bizim kafedra müdiri Xəyyam Mirzəzadə idi. İmtahan götürəndə onunla Fərəc Qarayev oturmuşdular. Onlar öz aralarında tələbələri bölüşdürəndə məni Qara Qarayevin sinfinə salmışdılar. Qara müəllim Moskvada yaşayırdı, amma gəlib-gedirdi. O olmayanda dərsləri Fərəc Qarayev keçirdi. Dedim ki, atam kimin sinfində oxuyubsa, mən də o sinfi istəyirəm. Bu, bəlkə də gənclik maksimalizmi idi. Çünki evimizdə həmişə atamdan “Cövdət müəllimdə oxuyarkən...” sözlərini eşitmişdim.

> “İlk mahnısını təsadüfən bəstələyib. Onu buna sövq edən İslam Səfərli olub. Atamla təsadüfən görüşəndə ona “Dalğalar” şeirini verib “buna mahnı yaz” deyib.”

● **Yəni bir xəyalınız vardı...**

● Bəli, bir xəyalım vardı. Bizim evdə, yaşadığım o mühitdə Cövdət Hacıyevin bir obrazı yaranmışdı. Atamın heç xəbəri də yox idi, mən gedib bununla bağlı ərizə də yazdım. Atam eşidəndə normal qarşıladı. Xəyyam müəllim ona zəng edib vəziyyəti demişdi. Cövdət müəllim tələbələri adla yox, soyadla çağırardı. Tanış olmaq üçün əsərlərimi istədi. “Gətir görüm, nə yazmısan?” – dedi. O, əsərləri vasitəsilə tələbəni qiymətləndirirdi. Beləcə onun sinfində oxudum.

**“MƏN ELƏ NAZİMLƏ İŞLƏYƏCƏYƏM...”**

● **Ramiz müəllim mənə müsahibəsində “hələ işlərim çoxdur. Yarımçıq əsərlərim var”, - demişdi. Siz o işləri davam etdirə bildinizmi?**

● Bəzi sifarişləri vardı. Yeni operetta başlamışdı. Bir müsahibəsində demişdi ki, mən bütün janrlarda əsər yazmışam, opera yazmaq istəyirəm. Hətta mövzunu da seçmişdi, “Aydın” operasını yazmaq istəyirdi. Hüseyn Cavidin bir çox dram əsərlərinə musiqi bəstələmişdi. Digər əsərlərini bitirmişdi. Bəzi müğənnilərə “sənin üçün filan əsəri yazıram” deyirdi. Onlar da gözləyirdilər. Son zamanlar Azər Zeynalovla, Samir Cəfərovla daha çox işləyirdi.

İş elə gətirmişdi ki, atamla bərabər musiqi də bəstələmişdik. “Qəzəlxan” filminə bəstələnən musiqini bir yerdə işlədik. Rejissor Şahmar Ələkbərov filmdə atamla işləməyə başlamışdı. Filarmoniyadakı simfonik konsertimdə iştirak edəndən sonra “filmdə elə səhnələr var ki, mənə də elə musiqilər lazımdır”, - deyə bildirdi. Atam da “mən elə Nazimlə işləyəcəyəm”, - deyə orada qərar verdi.

**“ATAM ÜMUMİLİKDƏ, 600-700 MAHNI BƏSTƏLƏMİŞDİ”**

● **Ramiz Mirişli musiqinin bütün janrlarında yazıb. Amma onu daha çox populyar edən mahnı janrı idi. Özü bunun sirrini necə izah edirdi?**

● Mahnı janrı ən sadə və kiçik musiqi formasıdır. Orada söz və musiqinin vəhdəti var. Hər bir insan mahnını dinləyir, qavrayır və anlayır. Kütlə bəstəkarı mahnı ilə tanıyır. Bu üzdən mahnı ən demokratik janrdır. Janr özü onu tanıdıb. Amma təbii ki, Cahangir Cahangirov da, Səid Rüstəmov da simfonik musiqi bəstələyib, böyük əsərlər yazıblar. Xalq onları dinləyirmi? Yox! Amma mahnılarını dinləyir. Arif Məlikov dünyaca ünlü balet yazıb. Bütün millət o əsər haqqında eşidibmi? Hamı bilirmi, o əsər Böyük Teatrın səhnəsini zəbt edib, Amerikaya qədər gedib çıxıb? Yox! Amma Arif Məlikov sonra oturub 10-15 mahnı yazdı. Yaddaqalan melodiya hər zaman populyar olur.

● **Sizcə, kütlə sevgisi də onları bu janrda yazmağa sövq edir?**

● Kütlə sevgisi o zaman sövq edir ki, “mən bir şey yazım, populyar olum”, - deyə düşünürsən. Bu, düz deyil. Atam simfonik musiqiyə meyilli idi. Heç vaxt “mən gedib mahnı bəstələyim” deməyib. İlk mahnısını təsadüfən bəstələyib. Onu buna sövq edən İslam Səfərli olub. Atamla təsadüfən görüşəndə ona “Dalğalar” şeirini verib: “Buna mahnı yaz” deyib. Atam da yazıb. O vaxt Şövkət Ələkbərova çox populyar idi. Atam utana-utana ona yaxınlaşaraq mahnını təqdim edib. Şövkət Ələkbərova atamı evinə dəvət edib. Mahnını bəyənib, “oxuyaram” deyib. Bununla da mahnı populyar olub. O gündən müğənnilər “bizim üçün mahnı yaz” deyə atamdan yapışıblar. Zeynəb Xanlarova, Rəşid Behbudov, Flora Kərimova, Elmira Rəhimova, Yaşar Səfərov, İlhamə Quliyeva... Müğənnilər üçün ilk dueti bəstələyən də atam olub. Həmişə deyirdi ki, XXI əsrin ən böyük müğənnilərinin hamısı mənim mahnılarımı oxuyublar. O gözəl səsi, diapazonu olan müğənniləri sevərdi. Onun mahnılarının içində muğamın intonasiyaları vardı. Bu da hər bir azərbaycanlının ürəyinə yatırdı.

● **Fikrət Qoca ilə iş birliyi daha sıx idi...**

● Atam ümumilikdə, 600-700 mahnı bəstələmişdi. Bir dəfə oturub saymaq istədik. “Mən artıq yoruldum, sonra sayarıq” dedim. Bəzi mahnıları vardı ki, teatrlar üçün yazmışdı və unutmuşdu. O mahnıların 120-si Fikrət Qocanın sözlərinə idi. Fikrət Qoca atamın ən yaxın dostu idi. Məmməd Arazın sözlərinə də çox mahnılar bəstələmişdi. Bir dəfə Fikrət müəllim mənə telefon açdı. 12 clddən ibarət külliyyatı çıxmışdı. Onun 7-ci cildini mənə bağışladı. O clddə mahnılar yazılan şeirləri çap olunmuşdu.





**Fotolar:** Tapdıq Abdullayev/Global Photostock

## “Həmişə deyirdi ki, heç vaxt xalq musiqisindən uzaq düşməyin”

● **Evdə bir ata kimi necə idi?**

● Atamız bizimlə dost idi. Evdə tələbkarlığı, ciddiyyəti daha çox anamdan görürdük. Anam üç oğlan uşağını ərköyün böyütməmək üçün çalışırdı. Təbii ki, atam dərslərimizlə maraqlanar, tövsiyələrini verərdi. Amma cəza vermək xasiyyəti yox idi.

● **Sizə ən çox nə tövsiyə edərdi?**

● Özü kamança ifaçısı olub. Həmin bəstələrlə konservatoriyaya daxil olub. Biz isə Avropa musiqisi ilə böyümüşdük. Həmişə deyirdi ki, heç vaxt xalq musiqisindən uzaq düşməyin, ondan bəhrələnin. Ona görə mən klassik bəstəkar və müğənnilərin vallarını alırdım. Bir yandan Avropa musiqisi, bir yandan xalq musiqisi... Atamın tövsiyəsi çox gərəyimiz oldu.

**“ƏSL SEYİDDİR, CÜMƏ GÜNÜ VƏFAT EDİB”**

● **Ramiz Mirişli aprelin 16-da doğulub. Vəfatı tarixi də aprelin 17-dir. Qəribə təsadüfdür. Özü “Peyğəmbər nəslindənəm” deyirdi. Yəqin vəfatından sonra bunu əlaqələndirənlər oldu...**

● Vəfatı ilə bağlı sənəd vacib lazım idi. Ancaq almağa gedəndə “eybi yox, sonra gətirərsən” dedilər. Notariusdakı qadın “Əsl seyiddir, cümə günü vəfat edib” söylədi. Yəqin nəsə vardı... Bəzən bir çox şeylərdə bu nüans özünü göstərirdi. Naxçıvanın tanınmış soyadları haqqında yazılan kitabda soyadımız “Miriş ağa” - atamın babasının adı ilə gedir. Ulu Öndər Heydər Əliyev Naxçıvanda oxuyanda onun ədəbiyyat müəllimi atamın əmisi Mircəfər ağa olub. Bizim yaşadığımız həyət bir-birinə bağlı evlərdən ibarət idi. 70-ci illərin axırında gəlib sökdülər, hamıya mənzillər verildi. Ancaq bizim həyətdə nə tikmək istədilərsə alınmadı. Hotel tikmək istədilər, o da alınmadı. Bir yük maşını aşdı, buldozerin dişi sındı. Heydər Əliyev Naxçıvana qayıdandan sonra o ərazidən keçəndə oradakı vəziyyəti görüb maraqlanıb. Vəziyyət haqqında məlumat veriblər. “Bura Mirişlilərin ocağıdır. Burada hotel tikərlər? Burada məscid tikdirin”, - deyə göstəriş verib. Məscidin açılışına atamı da dəvət etmişdilər. Ulu Öndər həmin tədbirdə “Burada Seyidovlar yaşayıblar. Mircəfər ağa mənim müəllimim olub. Mirişlilərin böyük bir bəstəkarı var: Ramiz Mirişli”, - deyib. İndi o məsciddə Mirişlilərin ayrıca bir guşəsi var. Atam vəfat edəndə o məsciddə də ehsan verdik. Naxçıvan camaatı axışıb gəlirdi...

# KÜRDƏMİR STANSİYASI İSTİFADƏYƏ VERİLDİ

Kürdəmir coğrafi yerləşməsinə görə həm ölkəmizdən keçən beynəlxalq dəhlizlər, həm də ölkədaxili marşrutlar üzərində mühüm mövqeyə malikdir. Azərbaycan Dəmir Yollarının buraya qatar səfərlərini bərpa etməsi ilə bu üstünlük artıq sərnişindaşımada da hiss olunacaq.




"Azərbaycan Dəmir Yolları" QSC-nin Bakı Dəmiryol Vağzalından Kürdəmir stansiyasına yola düşmüş rəmzi qatar təyinat məntəqəsinə çatıb. Yenidən qurulmuş stansiyada müasir standartlara cavab verən ümumi gözləmə və VİP zallar sərnişinlərin xidmətində olacaq. Bakı-Kürdəmir istiqamətində biletlərin minimal qiyməti 11,1 manatdır. Stansiyanın istifadəyə verilməsi Kürdəmir və ətraf rayonlar – Ağsu, Göyçay, Zərdab, Sabirabad və İmişli rayonları üzrə ümumilikdə 300 mindən çox əhali üçün mobilliyi genişləndirəcək, həm paytaxta, həm də ölkəmizin qərb və şimal-qərb bölgələrinə, eləcə də Qarabağa müasir qatarlarla rahat, təhlükəsiz və sərfəli səyahət imkanı təqdim edəcək.

### RAHAT VƏ TƏHLÜKƏSİZ SƏFƏR

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini Arif Ağayev bildirib ki, Kürdəmir stansiyası ilə həm Bakıya, həm şimal və qərb rayonlarına, həm də Qarabağa rahat və təhlükəsiz səfər etmək mümkün olacaq. Onun sözlərinə görə, Kürdəmir stansiyasının yenidən xidmətə verilməsi dəmir yolları üçün əlamətdar hadisədir: "Çünki Kürdəmir coğrafi yerləşməsinə görə həm ölkəmizdən keçən beynəlxalq dəhlizlər, həm də ölkədaxili marşrutlar üzərində mühüm mövqeyə malikdir. Azərbaycan Dəmir Yollarının buraya qatar səfərlərini bərpa etməsi ilə bu üstünlük artıq sərnişindaşımada da hiss olunacaq. Başqa sözlə desək, Bakı-Qazax-Bakı, Bakı-Balakən-Bakı, Bakı-Ağdam-Bakı, eləcə də həftəsonu və bayram günlərində Bakı-Ağstafa-Bakı marşrutlarına inteqrasiya ediləcək Kürdəmir stansiyası vasitəsilə həm burada, həm də ətraf bölgələrdə nəqliyyat əlçatanlığı daha da yüksələcək".



Fotolar: Rüfət Mikayılov/Global Photostock

### AĞDAM-XANKƏNDİ DƏMİR YOLU NƏ VAXT AÇILACAQ?

Arif Ağayev bildirib ki, gələn il Ağdam-Xankəndi dəmir yolunun açılışı planlaşdırılır. Onun sözlərinə görə, 2025-ci ildə sərnişindaşıma daha da genişləndirilib: "İlin əvvəlində Bakı-Balakən-Bakı, iyun ayında Bakı-Qazax-Bakı, avqustda isə Bakı-Ağdam-Bakı marşrutları bərpa olunub. Bununla yanaşı, ilk dəfə Gəncə-Qəbələ-Gəncə xətti istifadəyə verilib. Növbəti ildə həm Ağdam-Xankəndi dəmir yolunun, həm də Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı planlaşdırılır. Görülən bu tədbirlərin nəticəsi olaraq, 2025-ci ildə ADY rekord göstəriciyə nail olaraq 10 milyondan çox sərnişin daşıyıb ki, bu da xidmət keyfiyyətinin artırılmasına və müştəri məmnuniyyətinə verdiyimiz önəmi bir daha nümayiş etdirir".

### STANSİYALARIN FƏALİYYƏTİ BƏRPA EDİLİR

ADY-nin Sərnişindaşımaları departamentinin rəisi Azər Fərəcov bildirib ki, ADY koronavirus (COVID-19) pandemiyasından sonra mütəmadi şəkildə stansiyaların fəaliyyətini bərpa edir, xidmət coğrafiyasını genişləndirir. Onun sözlərinə görə, məqsəd həm müştəri məmnuniyyətinin artırılması, həm də ölkə ərazisində sərnişinlərin səyahətinin tam dolğun təmin olunmasıdır: "Əvvəllər qatar Bakıdan Kürdəmirə 3 saat 11 dəqiqəyə hərəkət edirdi. İndi isə müddət 2 saat 11 dəqiqədir".

### BU MARŞRUT ÜZRƏ LAYİHƏLƏNDİRMƏ İŞLƏRİNƏ BAŞLANILIB

Azər Fərəcov bildirib ki, ADY Hövsan marşrutu üzrə də layihələndirmə işlərinə başlayıb. Onun sözlərinə görə, 28 May-Hövsan marşrutu üzrə həm qatarların alışı, həm də mövcud stansiyaların bərpası, dəmir yolunun təmiri nəzərdə tutulub: "Bu istiqamətdə artıq layihələndirmə işlərinə başlanılıb. Bu marşrut üzrə işlərin 2030-cu ilə kimi bitirilməsi nəzərdə tutulub. Belə ki, biz işlərin 2027-2028-ci illərdə başa çatacağını gözləyirik".

### 20 QATAR ALINACAQ

A.Fərəcov qeyd edib ki, ADY 2030-cu ilə qədər 20 ədəd qatar almağı planlaşdırır. Onun sözlərinə görə, artıq qatarların alınması prosesinə başlanılıb: "Amma onların istehsal müddəti iki il çəkdiyinə görə, həmin qatarların 2030-cu ilə kimi istifadəyə verilməsi nəzərdə tutulur".

A.Fərəcov deyib ki, ADY elektrikləşdirmə və "yaşıl nəqliyyat" istiqamətində işlər aparır.




# "QazaqGaz" və SOCAR əməkdaşlıq perspektivlərini müzakirə edib

Qazaxıstanın "QazaqGaz" SC-nin İdarə Heyətinin sədri Alibek Jamauov və Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf Aşqabadda keçirilən görüşdə təbii qaz sahəsində əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

"Report"un "QazaqGaz"a istinadən xəbər verir ki, görüş Aşqabadda "Türkmənistan - Çin Xalq Respublikası: qaz sənayesində 20 illik strateji əməkdaşlıq" adlı elmi-praktiki konfrans çərçivəsində baş tutub.

Tədbir çərçivəsində A.Jamauov "Türkmənqaz" dövlət konserninin sədri Maksat Babayev və CNPC-nin Direktorlar Şurasının sədri Day Houlyanla da danışıqlar aparıb.

"Görüşlər zamanı tərəflər qaz sənayesində əməkdaşlığın cari vəziyyətini və perspektivlərini, o cümlədən tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi və birgə təşəbbüslərin inkişaf etdirilməsi məsələlərini müzakirə ediblər", - məlumatda qeyd olunub.

Bildirilib ki, "QazaqGaz" beynəlxalq əməkdaşlığı fəal şəkildə inkişaf etdirərək enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, regional və qlobal əməkdaşlığın genişləndirilməsinə töhfə verir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 504
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ELEKTROMOBİLLƏR YAĞIŞ SINAĞINDAN ÇIXA BİLDİMİ?

**Güclü yağışlardan sonra avtoservislərdə müşahidə olunan sıxlıq elektromobillərin istismar qaydalarındakı boşluqları üzə çıxarıb. Ekspertlər xüsusilə Çin istehsalı olan bəzi modellərdə izolyasiya qüsurlarının olduğunu bildirirlər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Yağışlı günlərdə sosial şəbəkələrdə paylaşılan kadrlarda su basmış yollarda aciz qalan, hərəkətsiz dayanan elektrikli avtomobillər xüsusi diqqət çəkdi. Bəs müasir texnologiyanın gələcəyi sayılan bu avtomobillər paytaxtın “yağış sınağı”ndan necə çıxdı?

### “ELEKTROMOBİLLƏR SUYA DÜŞDÜKDƏ ELEKTRON SİSTEMİ ZƏDƏLƏNİR”

Elektromobil ustası İlqar İsgəndərovun sözlərinə görə, daxili yanma mühərrikli maşınlardan fərqli olaraq, elektromobilləri su basmış yollarda sürmək 80 faiz hallarda avtomobilin sıradan çıxması ilə nəticələnir: “Avtomobil suda nə qədər çox hərəkət edərsə, bir o qədər tez xarab olur. Bu fəsadlar çox vaxt dərhal yox, müəyyən müddət sonra özünü büruzə verir. Elektromobillər suya düşdükdə elektron sistemi zədələnir. Suyun platalara və kontaktlara daxil olması bərpası çox çətin, bəzən isə mümkünsüz olan fəsadlar yaradır. Son yağışlı günlərdə servisimizə edilən müraciətlərin sayı kəskin artıb”.

Usta bildirir ki, zəif izolyasiya səbəbindən xüsusilə Çin istehsalı olan avtomobillər daha çox risk altındadır. Elektromobillərin iş prinsipi ənənəvi mühərriklərdən fərqlidir. Burada batareya, invertor və yüksək gərginlikli naqillər mövcuddur. Həmin hissələrə su daxil olan kimi sistem tamamilə qəza rejiminə keçir ki, bunun da təmiri olduqca ağır və bahalıdır.

### “CƏRƏYAN VURMA TƏHLÜKƏSİ YOXDUR”

Avtomobillər üzrə mütəxəssis Elçin Abbasov isə bildirdi ki, daxili yanma mühərrikli avtomobillər suya düşərkən mühərrikin içinə su dolması təhlükəsi yaranırsa, elektromobillərdə bu risk əsasən elektrik sistemlərinin izolyasiyasının pozulmaları ilə əlaqədardır. Ancaq elektromobillər və hibridlər yüksək gərginlik sistemlərini özləri qoruyurlar: “Bu qorunma ondan ibarətdir ki, yüksək gərginlik sisteminin avtomobilin kuzası (korpusu) ilə əlaqəsi yoxdur. Əgər 12 və ya 24 voltluq sistemlər mənfini korpusa verir və müsbəti paylayırsa, yüksək gərginlik sistemi korpusdan tam izolyasiya olunub. Cüzi cərəyan sızması və ya qısaqapanma olarsa, xüsusi relelər bunu dərhal aşkarlayır və cərəyanı kəsir. Ona görə də “elektromobildə insanları cərəyan vurar” qorxusu tamamilə əsassızdır, texniki cəhətdən mümkün deyil”.

E.Abbasovun fikrincə, problemlə üzləşən maşınlar əsasən əvvəllər qəzaya uğramış və xırda da olsa zədələr alanlardır: “Zədə nəticəsində akkumulyatorun və ya yüksək gərginlik sisteminə aid qurğuların izolyasiyası pozulur. Normal, sağlam akkumulyator sudan tam izolyasiya olunub və onda problem yaranmır. Lakin maşının altı harasa dəyibsə, quru havalarda bu bilinməsə də, suya girdikdə həmin zədəli hissədən, dəliklərdən içəriyə su daxil olur. Su daxil olduqda qoruyucu sistemlər işə düşür, akkumulyator cərəyan verilməsini dayandırır. Nəticədə avtomobil sönür, suyun ortasında qalır və məcburən evakuatorla servisə gətirilir”.



## “GERİ QAYITMAQ DAHA YAXŞIDIR”

Ekspert bildirir ki, elektromobillə su yığılan ərazilərə girməkdənsə, geri qayıtmaq daha yaxşıdır: “Əgər suya girmək məcburiyyətindəsinizsə, suyun səviyyəsi qapı açıldıqda içəri dolmayacaq hündürlükdən aşağı olmalıdır. Həmçinin, sudan mütləq yavaş keçmək lazımdır. Çünki sürətlə hərəkət etdikdə yaranan dalğalar suyun səviyyəsini süni şəkildə qaldırır ki, bu da həm siz, həm də ətrafdakı avtomobillər üçün təhlükəlidir. Digər bir vacib məsələ - əgər hibrid avtomobil idarə edirsinizsə, belə havalarda akkumulyatorun səviyyəsini yüksək tutun və ancaq elektrik (EV) rejimində keçin. Daxili yanma mühərrikini işlətməyin. Çünki mühərrik rejimində sürsəniz, mühərrikin içinə su dola bilər”.

### ƏN ÇOX PROBLEM TAKSİLƏRDƏDİR

E.Abbasovun sözlərinə görə, belə vəziyyətdə servislərə ən çox müraciət edənlər taksi fəaliyyəti ilə məşğul olan avtomobillərdir. Bunun əsas səbəbi həmin maşınların intensiv istismar olunmasıdır: “Əgər avtomobilinizin qapısına qədər olan sudan ehtiyatla keçmisinizsə və maşında əvvəlcədən heç bir nasazlıq olmayıbsa, sürməyə davam edə bilərsiniz, yoxlatdırmağa ehtiyac yoxdur. Lakin dediyim həddən daha dərin sudan keçmisinizsə, ondan sonra avtomobili mütləq yoxlatdırmaq lazımdır. Səbəb isə odur ki, elektromobillərdə ötürmələr qutusunun və reduktorların nəfəslikləri, akkumulyatorların isə temperatur dəyişəndə havanın dövriyyəsi üçün xüsusi klapanları olur. Dərin suda həmin klapanlardan və nəfəsliklərdən sistemin içinə su dola bilər. Ona görə də hermetikliyin pozulub-pozulmadığını, hər hansı zədənin olub-olmadığını öyrənmək üçün profilaktik yoxlanış şərtdir”.


Elçin Abbasov

## “İSTEHSALÇILAR BU MƏSƏLƏYƏ KİFAYƏT QƏDƏR DİQQƏT AYIRMIRLAR”

Elektromobil bloqeri İlkin Mustafayev də bəzi avtomobillərdə problemin olduğunu təsdiqləyir: “Normalda, istehsal prosesində hər bir avtomobilin batareyası su, toz və zərbədən qorunmaq üçün qlobal “İP” standartlarına cavab verməlidir. Lakin bəzi markaların istər elektrik, istərsə də hibrid modellərində bu standartlara əməl edilmədiyinin canlı şahidi olduq. Bu problem əsasən Çinin daxili bazarı üçün istehsal edilən modellərdə özünü büruzə verdi. Təbii ki, günahı yalnız istehsalçıda görmək haqsızlıq olar. Sürücülərin avtomobildən istifadə davranışları da burada mühüm rol oynayır. Elektromobillərdə ənənəvi mühərrik olmadığı üçün dərin sudan keçərkən “boğulma” və sönmə problemi yaranmır. Lakin “plug-in” hibrid avtomobillər tam elektrikli maşın hissi yaratdığından, bəzi sürücülər daxili yanma mühərriki işlək vəziyyətdə ikən dərin gölməçələrə girdilər və nəticədə mühərriklərinə ciddi ziyan dəydi”.


İlkin Mustafayev

İ.Mustafayevin fikrincə, digər əsas problem batareyaya su sızması və izolyasiya qüsurlarıdır: “Bu izolyasiyalar daha dayanıqlı olmalı idi. Lakin bəzi istehsalçılar buna kifayət qədər diqqət ayırmırlar”.



# QIZIL BAZARINDA SAXTAKARLIQ RiSKi

Qızılın investisiya aləti kimi dəyərinin artması bu sahədə fırıldaqçılıq hallarını da bərabərində gətirir. Alıcılar bəzən aldıqları məhsulun keyfiyyətinə əmin olmaq istəyirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Qızılın qiymətinin kəskin bahalaşması bu sahəyə marağı artırmaqla yanaşı, dələduzluq risklərini də yüksəldib. Alıcılar iddia edirlər ki, bəzi satışa təqdim olunan qızıl məmulatlarının üzərində göstərilən əyar ilə faktiki tərkibi arasında uyğunsuzluq var. Bu halda alıcılar aldıqları qızılın həqiqətən təmiz və göstərilən əyara uyğun olub-olmadığını necə müəyyənləşdirə bilərlər? Qızılın keyfiyyətini yoxlatdırmaq üçün hansı rəsmi və etibarlı mexanizmlər mövcuddur?

**VƏTƏNDAŞ ALDIĞI QIZILIN KEYFİYYƏTİNƏ ŞÜBHƏ EDƏRSƏ...**

Qızıl işi ilə məşğul olan Aynurə Qələndərova deyir ki, fırıldaqçılıq halları daha çox brilyant və yüksək əyar qızıllarda müşahidə olunur: "Qızılın dünya bazarındakı qiyməti hər gün dəyişdiyi üçün alış zamanı fərqli mənbələrdən müqayisə aparmaq tövsiyə olunur. Bu yanaşma iki baxımdan faydalıdır. Birincisi, məhsulun cari bazar dəyərini düzgün qiymətləndirməyə imkan verir, ikincisi isə potensial fırıldaqçılıq risklərini minimuma endirir".

Qızıl satıcısı bildirir ki, qızılın qiyməti əyarları və istehsal edildiyi ölkəyə görə dəyişir: "Vətəndaş aldığı qızılın keyfiyyətinə şübhə edərsə, mütəxəssisə yoxlatması məsləhət görülür. Bunun üçün xüsusi lazer aparatları var ki, bu cihazlarda qızılın içindəki əyar, qiymətli daşların çəkisi, xalisliyi və digər parametrləri müəyyən etmək mümkündür. Alıcı lazer aparatında yoxlama aparmasa belə, bazarda "qızıl alıram" tabeli olan yerlərdə məhsulun keyfiyyətini yoxlada bilər. Qızıl alarkən etibarlı mağaza ilə əlaqə saxlamaq vacibdir. Qızılın 585, 750 və ya digər əyarlara uyğunluğunu göstərən rəsmi sənədlər də mövcuddur. Alıcı məhsulu alarkən bu sənədləri və sertifikatları tələb etməlidir".

**"BUNU ZAHİRİ BAXIŞLA MÜƏYYƏN ETMƏK MÜMKÜN DEYİL"**

"Azərbaycan Zərgərlər Assosiasiyası" İctimai Birliyinin İdarə Heyətinin sədr müavini Rövşən Əmircanov deyir ki, qızıl bazarında fırıldaqçılıq hallarının artması ilə bağlı assosiasiyaya nadir hallarda məlumat daxil olur: "Amma zərgərlik sənayesinin inkişaf etdiyi digər ölkələrdə olduğu kimi, qiymətli metallar bazarında da ayrı-ayrı hallarda saxtakarlıq və ya aldatma faktlarına rast gəlinməsi istisna edilmir. Belə halların yaranmasına təsir göstərən əsas amillər sırasında qiymətli metalların qiymətinin artması fonunda daha çox qazanc əldə etmək meylinin güclənməsi, eləcə də alıcının məmulatın faktiki tərkibini, əyarını və keyfiyyət göstəricilərini yerində dəqiq müəyyən edə bilməməsi göstərilə bilər. Qiymətli metalların və daşların keyfiyyətinin düzgün müəyyən olunması texniki baxımdan həssas məsələdir. Bu göstəricilərin yalnız zahiri baxış əsasında etibarlı şəkildə müəyyən edilməsi mümkün olmur".

## "Əyar damğası əsas şərtlərdəndir"

R.Əmircanov bildirir ki, alıcılar nəzərə almalıdırlar ki, qanunvericilikdə nəzərdə tutulmuş istisnalar çıxılmaqla, Azərbaycanda istehsal edilən, habelə ölkə ərazisində satışa çıxarılan qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və digər məişət məmulatları dövlət əyar damğası ilə damğalanmalıdır: "Alınması nəzərdə tutulan məmulatın üzərində dövlət əyar damğasının mövcudluğu əsas şərtlərdən biri hesab edilməlidir".

Ən çox rast gəlinən saxtakarlıq üsullarına gəldikdə isə, mütəxəssis bildirir ki, belə hallardan biri aşağı əyarlı məmulatın daha yüksək əyarlı kimi təqdim olunmasıdır: "Həmçinin məmulatın çəkisi və ya üzərindəki daşlarla bağlı alıcının yanlış məlumatlandırılması da saxtakarlıq üsulları sırasına aid edilə bilər. Alıcı ilk növbədə məmulatın üzərində dövlət əyar damğasının olub-olmamasına, həmçinin göstərilən əyarın qanunvericilikdə nəzərdə tutulmuş standart əyarlardan birinə uyğun gəlib-gəlmədiyinə diqqət yetirməlidir. Qızıl üçün müəyyən edilmiş standart əyarlar 375, 500, 583, 585, 750, 958 və 999-dur. Əgər məmulatda qiymətli daşlardan istifadə olunubsa, həmin daşın xüsusiyyətlərini təsdiq edən ekspertiza sənədinin və ya sertifikatın təqdim olunması alıcının hüquqlarının qorunması baxımından mühüm əhəmiyyət kəsb edir".

## Peşəkar yoxlama necə aparılır?

Mütəxəssis bildirir ki, peşəkar yoxlama zamanı, bir qayda olaraq, rentgen-flüoresans analizi (XRF) kimi qeyri-dağıdıcı üsullardan, zərurət yarandıqda isə kupelyasiya üsulundan (od sınağı), eləcə də digər laborator-analitik metodlardan istifadə olunur: "Beynəlxalq praktikada XRF üsulu məmulatın tərkibinin operativ qiymətləndirilməsi üçün, kupelyasiya üsulu isə qızılın tərkibinin daha yüksək dəqiqliklə müəyyən edilməsi üçün tətbiq edilir. Bəzi hallarda induktiv əlaqəli plazma-optik emissiya spektrometriyası (ICP-OES) və atom-udma spektrometriyası (AAS) kimi instrumental üsullardan da istifadə oluna bilər. Belə xidmətlər, adətən, ixtisaslaşmış laboratoriyalarda və bu sahə üzrə müvafiq texniki imkanlara malik ekspertiza mərkəzlərində həyata keçirilir. Əsas məqsəd məmulatın əyarının, kimyəvi tərkibinin və digər keyfiyyət göstəricilərinin etibarlı şəkildə müəyyən edilməsidir".



Rövşən Əmircanov

R.Əmircanovun sözlərinə görə, alıcı məhsulun üzərində dövlət əyar damğasının mövcudluğunu, əyar göstəricisini, çəkisini, qiymətini, satış yerinin etibarlılığını, eləcə də təqdim olunan sənədləri diqqətlə yoxlamalıdır: "Alış-verişin daimi fəaliyyət göstərən, hüquqi ünvanı və əlaqə vasitələri aydın olan etibarlı satış məntəqələrindən həyata keçirilməsi məqsədəuyğun hesab olunur. Satıcı tərəfindən qəbzin təqdim edilməsi, dəyişdirmə və geri qaytarma şərtlərinin əvvəlcədən izah olunması da mühüm əhəmiyyət kəsb edir. Məmulatda qiymətli daş olduqda, daşın növü, çəkisi, xüsusiyyətləri, habelə mümkün olduğu təqdirdə buna dair sertifikatın və ya ekspertiza sənədinin təqdim edilməsi də tələb olunmalıdır. Şübhəli dərəcədə ucuz qiymət təklifləri, sənədsiz satış, qeyri-rəsmi elanlar və mənşəyi aydın göstərilməyən məhsullar alıcı üçün əlavə risk yaradır. Praktik baxımdan alıcılar üçün ən riskli seqmentlər məhsulun mənşəyinin, qəbzin, geri qaytarma şərtlərinin, əyar təsdiqinin və qiymətli daşlara dair sertifikatın aydın olmadığı satışlardır. Belə hallarda alıcının məhsulun həqiqi keyfiyyəti, hüquqi statusu və sonradan hüquqlarının müdafiəsi imkanları barədə dolğun məlumat əldə etməsi çətinləşir. Bu baxımdan sosial media vasitəsilə irəli sürülən qeyri-rəsmi təkliflər, sənədsiz ikinci əl məmulatların dövriyyəsi və satışı daha yüksək risk yaradır".

# FERMERLƏRİN SEÇİMİ DƏYİŞİR

Fermerlərin qarğıdalı əkininə marağı artıb. Ekspertlər bunu qarğıdalının daha rentabelli və gəlirli olması, həm də dövlət tərəfindən subsidiyalaşdırılması ilə əlaqələndirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu ilin yanvar ayında ölkəyə 1,4 milyon dollar dəyərində 7 min 580 ton qarğıdalının idxal edilməsi əvvəlki illərlə müqayisədə ciddi azalma deməkdir. Statistik rəqəmlər göstərir ki, idxal ötən ilin eyni dövrü ilə müqayisədə həm dəyər, həm də həcm baxımından kəskin şəkildə geriləyib. Belə ki, dəyər ifadəsində 66,5 faiz, miqdar ifadəsində isə 62,4 faiz azalma qeydə alınıb. Halbuki 2025-ci ilin yanvarında ölkəyə 4,2 milyon dollar dəyərində 20 min 168 ton qarğıdalı gətirilmişdi. Bəs, görəsən, idxal azalırsa, bu, yerli istehsalın artımı hesabınadır?




### “33 997,4 HEKTAR SAHƏDƏ DƏN ÜÇÜN QARĞIDALI ƏKİLİB”

Kənd Təsərrüfatı Nazirliyindən sorğumuza cavab olaraq bildirildi ki, ölkəmizdə qarğıdalı əsasən heyvandarlıqda yem məqsədilə istehsal edilir: “2025-ci təsərrüfat ilində Azərbaycanda 33 997,4 hektar sahədə dən üçün qarğıdalı əkilib. Mövsüm ərzində əkin sahələrindən 337 805,6 ton qarğıdalı yığılıb, qarğıdalı üzrə orta məhsuldarlıq 68,3 sentner/ha təşkil edib. Qeyd edək ki, 2024-cü illə müqayisədə dən üçün qarğıdalının əkin sahəsi 4 795,2 hektar (+16,4%), istehsalı 39,3 min ton (+13,2%), məhsuldarlığı isə 2,8 sentner/ha (+4,3%) çox olub”. Qurumdan bildirildi ki, Azərbaycanda qarğıdalı əkinləri subsidiyalaşdırılır: “Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2025/2026-cı təsərrüfat ilində müasir suvarma sistemləri ilə təchiz olunmuş sahələrdə becərilən qarğıdalının hər hektarına görə fermerlərə 160 manat, ənənəvi üsulla suvarılan qarğıdalı əkinlərinin hər hektarına görə isə 100 manat subsidiya ödənilir. Azad olunmuş ərazilərdə qarğıdalı əkinlərinə görə subsidiyanın miqdarı isə daha yüksəkdir. Bu ərazilərdə müasir suvarma sistemi quraşdırılmış qarğıdalı sahələrinin hər hektarına görə fermerlərə 270 manat subsidiya ödənilir. Ənənəvi suvarma ilə becərilən qarğıdalı əkinlərinin hər hektarı üçün isə 50 manat subsidiya nəzərdə tutulub. Bu əmsallar əkinlərdə müasir suvarma sistemlərinin qurulmasını təşviq məqsədilə müəyyən olunub. Qarğıdalı həm də təkrar əkinlərə görə subsidiya verilən bitkilər sırasındadır”.

### “8-10 TON MƏHSUL ƏLDƏ ETMƏK MÜMKÜNDÜR”

Fermer Rasim Zamanovun sözlərinə görə, qarğıdalı isti iqlim qurşaqları üçün ən uyğun taxıl bitkilərindən hesab olunur. Bu bitki quraqlığa və yüksək temperatur şəraitinə nisbətən davamlıdır: “Bununla belə, stabil və yüksək məhsuldarlıq əldə etmək üçün suvarma həlledici əhəmiyyət daşıyır. Qarğıdalının məhsuldarlığı buğda və arpa ilə müqayisədə xeyli yüksəkdir. Məsələn, fermerlər digər dənli bitkilərdən hektardan 30-40 sentner məhsul əldə etdikdə bunu qənaətbəxş hesab edirlər. Qarğıdalıda isə normal aqrotexniki qulluq göstərildiyi halda hektardan 8, hətta 10 ton və daha artıq məhsul götürmək mümkündür. Lakin hələ də Azərbaycanda heyvanların qarğıdalı əsaslı yemlə bəslənməsi tam ənənə halını almayıb. Halbuki dünya təcrübəsində heyvandarlıqda istifadə olunan yemlərin 50-60 faizi məhz qarğıdalının payına düşür. Xüsusilə kiçik fermer təsərrüfatlarında bu yanaşma geniş tətbiq olunmur”.

R.Zamanov bildirdi ki, hazırda bu məhsul əsasən Qax, Balakən və Zaqatala ərazilərində becərilir və daha çox dəmyə şəraitində əkilir: “Gəncə və Şəmkir bölgələrində də qarğıdalı əkininə rast gəlinir, lakin burada əsasən dənlik istehsala üstünlük verilir”.

### “SAHƏLƏR VAXTINDA SUVARILA BİLMİR”

Fermer qeyd etdi ki, əsas şikayətləri suvarma problemi ilə əlaqədardır: “Fermerlər tez-tez bildirirlər ki, su çatışmazlığı səbəbindən əkin aparmaq mümkün olmur və ya sahələr vaxtında suvarıla bilmir. Yağıntıların az olması bu problemi daha da dərinləşdirir. Buna görə də suvarma imkanlarının mövcud olduğu ərazilərdə qarğıdalı əkininə üstünlük verilməsi daha məqsədəuyğundur”.

### “Əsasən toxum idxal olunur”

İqtisadçı Cəfər İbrahimlinin sözlərinə görə, ölkəmizdə qarğıdalı əsasən iki istiqamətdə - dənlik məhsul kimi və yaşıl yem məqsədilə heyvandarlıq sektorunda istifadə olunmaq üçün əkilir: “Son illər bu bitkinin əkin sahələri xeyli genişlənib. Bunun əsas səbəblərindən biri qarğıdalının həm məhsuldarlıq, həm də funksionallıq baxımından digər dənli bitkilərlə müqayisədə üstün olmasıdır. Qarğıdalı digər dənli bitkilərlə müqayisədə daha çoxşaxəli istifadə imkanlarına malikdir. Bu amil onun əkininə marağı artırır. Dövlət tərəfindən bu məhsula kifayət qədər subsidiya ayrılması da, fermerlərin seçimində mühüm rol oynayır. Hətta bir çox hallarda fermerlər arpanın yerinə yazlıq əkin kimi qarğıdalıya üstünlük verirlər”.

C.İbrahimli bildirdi ki, hazırda daxili bazarda keyfiyyətli qarğıdalı toxumlarının çatışmazlığı müşahidə olunur: “Fermerlər toxumu əsasən idxal hesabına təmin edirlər. İdxal olunan toxumlar hesabına həm dənlik məhsulda, həm də yaşıl yem kimi daha yüksək məhsuldarlıq əldə edilir. Dənlik qarğıdalının bir hissəsi birbaşa heyvanların yemlənməsində istifadə olunur, digər hissəsi isə yağ istehsalına yönəldilir. Qarğıdalıdan yağ alındıqdan sonra qalan tullantılar da yem məqsədilə dəyərləndirilir ki, bu da məhsulun iqtisadi səmərəliliyini daha da artırır”.

### “QARĞIDALI FERMER ÜÇÜN OLDUQCA RENTABELLİ BİTKİDİR”

Ekspertin fikrincə, qarğıdalı suya və hava şəraitinə həssas olduğundan hər bölgədə uğurla yetişdirilməsi mümkün deyil: “Yay aylarında əkilən sahələrdə suvarma problemi və yüksək temperatur məhsuldarlığa mənfi təsir göstərir. Fermerlər üçün əsas çətinlik də məhz iqlim və suvarma ilə bağlı risklərdir. Buna baxmayaraq, normal məhsuldarlıq əldə olunduğu halda qarğıdalı fermer üçün olduqca rentabellidir. Bu baxımdan əsas hədəf məhsuldarlığın artırılması və becərmə texnologiyalarının daha səmərəli tətbiqi olmalıdır. Qarğıdalı idxalı yüksək olmasa da, mövcud ehtiyacların daxili istehsal hesabına ödənilməsi tam mümkündür”.



Cəfər İbrahimli

# İCBARİ SIĞORTA BAZARI NİYƏ KİÇİLİB?



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

2026-cı ilin yanvar-fevral aylarında Azərbaycanda icbari sığorta növləri üzrə toplanan sığorta haqları 43,126 milyon manat təşkil edib. Mərkəzi Bankın məlumatına görə, bu göstərici 2025-ci ilin eyni dövrü ilə müqayisədə 29,4% azdır.

Eyni dövrdə icbari sığorta növləri üzrə ödənişlərin məbləği 27,028 milyon manat olub ki, bu da illik müqayisədə 27,3% artım deməkdir. Nəticədə sığorta yığımları ilə ödənişlər arasındakı nisbət daha da sıxlaşıb: hər 100 manat sığorta haqqına qarşı 62,7 manat ödəniş edilib. Bir il əvvəl bu göstərici 34,7 manat idi.

Ümumi sığorta bazarında da oxşar dinamika müşahidə olunur. Yanvar-fevral aylarında 16 sığorta şirkəti tərəfindən 277,562 milyon manat sığorta haqqı toplanıb ki, bu da 1,3% azalma deməkdir. Ödənişlərin həcmi isə 148,800 milyon manata yüksələrək illik müqayisədə 37% artıb.

Beləliklə, ümumi bazarda hər 100 manat sığorta haqqının 53,6 manatı ödəniş kimi geri qaytarılıb. Ötən ilin eyni dövründə bu göstərici 38,6 manat olub.

Maraqlıdır, icbari sığorta bazarının kiçilməsinin səbəbi nədir?

### "YIĞIMLAR KƏSKİN ŞƏKİLDƏ AZALIB"

Sığorta eksperti İlkin Nəcəfov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, əsas səbəb daşınmaz əmlakın icbari sığortası üzrə yığımların ötən ilin eyni dövrü ilə müqayisədə kəskin şəkildə azalmasıdır. Onun sözlərinə görə, keçən ilin ilk iki ayı ilə müqayisədə bu il yığımlarda beş dəfədən çox azalma qeydə alınıb: "Bu azalmanı şərtləndirən əsas səbəb dövlət və dövlətə bağlı təşkilatlara məxsus daşınmaz əmlak üzrə icbari sığorta müqavilələrinin yenilənməsində yaranan gecikmələrdir. Müqavilələr yeniləndikdən sonra bu fərq müəyyən qədər bərpa olunacaq".

### "AVTOMOBİL SAHƏSİNDƏ YIĞIMLAR ARTACAQ"

Ekspert qeyd edir ki, avtomobil nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə yığımlarda da oxşar dinamika müşahidə olunur. Hətta bu seqmentdə 2-3 faiz həcmində artım qeydə alınıb: "Sığorta bazarında zərərlilik səviyyəsinin yüksək olması müəyyən çağırışlar yaradır. Xüsusilə taksi fəaliyyəti və kiçik həcmli nəqliyyat vasitələri üzrə zərərin yüksək olması səbəbindən bəzi sığorta şirkətləri avtoicbari sığorta bazarında aktiv fəaliyyət göstərməkdən çəkinir. Bununla belə, icbari sığorta şərtlərinə əsasən, şirkətlərin müraciətlərə imtina etmək hüququ olmadığından müqavilələr məcburi şəkildə bağlanır. Bununla yanaşı, İcbari Sığorta Bürosu və Mərkəzi Bank tərəfindən taksi fəaliyyəti ilə məşğul olan nəqliyyat vasitələri üzrə bonus əmsalının 1,5 dəfə artırılması nəzərdə tutulur. Bu dəyişiklik Bakı şəhəri üzrə minimum 25 min avtomobili əhatə edərək sığorta haqlarının artmasına səbəb olacaq və bazarda yığımların müəyyən qədər yüksəlməsinə gətirib çıxaracaq".




## "Azalma həyat sığortası seqmenti ilə bağlıdır"

Sığorta eksperti Pərviz Quliyev isə bildirir ki, icbari sığorta bazarında müşahidə olunan təxminən 29 faizlik azalma əsasən həyat sığortası seqmenti ilə bağlıdır. Onun sözlərinə görə, söhbət qanunvericilikdə "istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən icbari sığorta" kimi qeyd olunan, praktikada isə işəgötürənin məsuliyyət sığortası kimi tanınan məhsuldan gedir: "Bu sığorta növü həm dövlət, həm də özəl müəssisələr üçün məcburidir və işçilərin iş vaxtı ərzində baş verə biləcək risklərini əhatə edir. Əvvəlki illərdə dövlət müəssisələri bu sığorta növü üzrə ödənişləri ilin əvvəlində sığorta şirkətlərinə həyata keçirirdi. Lakin 2026-cı ildən etibarən tətbiq edilən dəyişiklik nəticəsində bu ödənişlər artıq sığorta şirkətləri vasitəsilə deyil, birbaşa sosial təminat sistemi üzərindən həyata keçirilir. Bu səbəbdən sığorta şirkətlərinin yığımlarında azalma qeydə alınıb. Hazırda özəl müəssisələr əvvəlki qaydada sığorta şirkətləri ilə işləməyə davam edir. Ümumilikdə isə bazarda müşahidə olunan azalmanın əsas səbəbi dövlət müəssisələrinin bu ödənişləri artıq sığorta şirkətləri üzərindən etməməsidir".



İlkin Nəcəfov



Pərviz Quliyev

## Ödənişlərin artmasının səbəbi

Mütəxəssis bildirir ki, ödənişlərin artmasının səbəbi də bazarda paralel şəkildə müşahidə olunan bir neçə amillə bağlıdır. Xüsusilə, yaşam sığortası burada əsas rol oynayır: "Həyatın yığım sığortası məhsulu mövcuddur. Bu məhsul üzrə keçən ildən etibarən dövlət müəssisələrində yeni müqavilələrin bağlanması dayandırılıb. Lakin əvvəlki dövrlərdə bağlanmış müqavilələr üzrə ödənişlər davam edir. Üç illik müqavilələrdə müddət başa çatdıqca ödənişlər həyata keçirilir. Ona görə də ödənişlərin artmasının səbəblərindən biri də məhz həyatın yığım sığortası üzrə aparılan ödənişlərdir. Konkret olaraq iki məhsul üzrə dəyişiklik müşahidə olunur: birincisi, həyat sığorta şirkətlərində istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən icbari sığorta üzrə yığımların azalması, ikincisi isə həyatın yığım sığortası üzrə ödənişlərin artmasıdır. Bu isə onu göstərir ki, həyat sığorta şirkətləri daha çox könüllü məhsullara fokuslanmalıdır. Bu məhsullar həyatın ölüm halından sığortası, kritik xəstəliklərdən sığorta və digər könüllü sığorta növləridir. Bu sığorta növlərinin daha çox təbliği, reklamı və maarifləndirilməsi həyata keçirilməlidir ki, həyat sığorta şirkətləri könüllü məhsulların satışını və gəlirlərini artıra bilsin. Bu çağırış yalnız həyat sığorta şirkətlərinə aid deyil. Qeyri-həyat sığorta şirkətləri də könüllü məhsulların satışını artırmaq üçün daha geniş maarifləndirmə və təbliğat fəaliyyəti həyata keçirməlidir".

### RİSK NƏ QƏDƏR YÜKSƏKDİRSƏ...

P.Quliyev vurğuladı ki, əslində sığorta haqlarının bahalaşması hansısa məhsulun bazardan çıxarılması ilə əlaqəli deyil: "Ümumilikdə sığorta haqlarının yüksək olması sığortalanan obyekt üzrə mövcud risklərin yüksək olması ilə bağlıdır. Məsələn, siz fərqli evləri sığortalaya bilərsiniz, amma əgər müəyyən bir ev üzrə risk daha yüksəkdirsə, həmin obyektə tətbiq olunan sığorta tarifi də daha yüksək müəyyən edilir və nəticədə sığorta haqqı daha çox olur. Ona görə də hazırda hansısa sığorta məhsulunun bazardan çıxması digər sığorta növlərində qiymət artımına səbəb olmur. Çünki faktiki olaraq həmin məhsul ümumiyyətlə satılmadığı üçün onun bazardan çıxması digər sığorta növlərinin qiymət dinamikasına təsir etmir".

## “YALNIZ STANDARTIN QƏBUL EDİLMƏSİ İLƏ NƏTİCƏYƏ NAİL OLMAQ ÇƏTİNDİR”

# SÖHBƏT HALALLIQDAN GEDİRSƏ...

Ölkəmizdə qəbul edilən “Halal turizm xidmətləri. Ümumi tələblər” dövlət standartı halal turizmin inkişafına hesablanıb. Mütəxəssislər hesab edirlər ki, halal turizm dünya turizmində ən sürətlə böyüyən seqmentlərdəndir və böyük iqtisadi potensiala malikdir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Hazırda halal turizm qlobal turizm sənayesində ən sürətlə böyüyən və iqtisadi cəhətdən ən təsirli seqmentlərdən biri hesab olunur. Getdikcə daha çox ölkə müsəlman müştərilərə yönəlmiş turizm məhsulları hazırlayır. Nəticədə, turizm sənayesi yüksək keyfiyyətli halal tətillər üçün imkanlar yaradan innovasiya bumunu yaşayır.

Ölkəmizdə qəbul edilən “Halal turizm xidmətləri. Ümumi tələblər” dövlət standartı da halal turizmin inkişafına hesablanıb. Yeni standart yerləşmə vasitələri, tur paketləri, turist bələdçiləri və halal turizmə dair digər turizm xidmətlərini əhatə edərək, səyahətçilər üçün nəzərdə tutulmuş halal turizm obyektlərində təqdim olunan məhsul və xidmətlərin idarə olunmasına dair əsas prinsipləri və tələbləri müəyyən edir.

Nəzərə almaq lazımdır ki, halal turizm üzrə sənayenin əhatə dairəsi çox genişdir. Xüsusi halal turizm konfransının təşkilatçıları bildiriblər ki, 2025-ci ildə müsəlman səyahətçilərin xərcləri 200 milyard dollara çatıb və onilliyin sonu üçün proqnozlar ümumi qlobal turizm sənayesini üstələyən davamlı artım vəd edir.

Müsəlmanların Qlobal Səyahət İndeksinin (GMTİ) məlumatlarına görə, son illər müsəlmanlar ən çox Fransaya səyahət paketlərini seçirlər. İtaliya və İngiltərə ikinci-üçüncü yerləri bölüşürlər. Almaniya və Türkiyə isə dördüncü və beşincidir.



Aytac Nəzirli



## “QƏBUL EDİLƏN STANDARTLAR VACİBDİR”

Turizmçi Aytac Nəzirli hesab edir ki, qəbul edilən standartlar vacibdir: “Biz cənub-şərqi Asiya ölkələri, körfəz ölkələri ilə müqavilələr bağlaya bilərik. Standartlara uyğunluq yaransa, bu, həmin ölkələr üçün əlverişli ola bilər. Unutmayaq ki, bu bazar dünya turizmində ən sürətlə böyüyən seqmentlərdəndir və böyük iqtisadi potensiala malikdir. Bizim ölkədə də onları cəlb etmək üçün şərait var. Ancaq hazırkı vəziyyətdə yalnız standartın qəbul edilməsi ilə nəticəyə nail olmaq mümkün deyil. Halal turizmin inkişafı kompleks yanaşma tələb edir. Bunun üçün ilk növbədə uyğun infrastrukturun yaradılması, serifikatlaşdırma, kadrların düzgün hazırlanması, effektiv marketinq strategiyası həyata keçirilməlidir. Bunlar kompleks şəkildə olarsa, standartlara tam hazır ola bilərik. Əgər standartlara tam cavab versək, ərəbdilli ölkələrin vətəndaşlarının ölkəmizə axını qaçılmazdır. Biz dünyəvi ölkə olaraq turizmi inkişaf etdirmək üçün bir neçə bazara girməliyik. Məsələn, əvvəllər Hindistan və s. ölkələrdən gələnlərə üstünlük verirdiksə, indi daha çox körfəz ölkələrinə də yol açmalıyıq. Buna görə halal turizm üzrə standartların qəbul olunması müsəlman ölkələrinin vətəndaşlarını cəlb etmək, onların etnik, dini dəyərlərinə uyğun səyahət etmələrini təmin etmək baxımından vacibdir”.

### “RESTORANLARDA QİYMƏTLƏR DƏ TƏNZİMLƏNMƏLİDİR”

A.Nəzirli hesab edir ki, bu çərçivədə turizm obyektləri qarşısında müəyyən tələblər qoyulmalıdır: “Məsələn, hotel və restoranlarda serifikatlaşdırma olmalıdır. Hətta bələdçilər belə bu standartlara uyğun şəkildə təlimlənməlidirlər. Turistlərin ən çox soruşduğu ”halal qidadırmı?” sualı həllini tapmalı, ibadət yerləri çox olmalıdır. Hər hansı obyektə gedəndə qonaqların rahatlıqla ibadət etməsi üçün şərait yaradılmalıdır. Düzdür, bizdə bəzi yerlərdə belə guşələr var, amma hər yerdə rast gəlinmir. Bu tələblərin olması standartları həyata keçirməyə şərait yaradar”. Turizmçi bildirir ki, halal turizm obyektlərində ailə mühitinin qorunması da zəruridir: “Bir restorana gediriksə, sırf kişilərin oturduğu yerdə ərəb ölkələrindən gələn turistlər ailə üzvləri ilə otura bilməzlər. Bunun üçün ailə kabinetləri və ya ailə zalları olmalıdır. Bizdə bir-iki restoran var ki, iki zaldan ibarətdir. Həmin zalların birində ailəvi qəbul edirlər və yeməkləri də halaldır. Bu baxımdan, standartlar körfəz ölkələrinin prinsiplərinə uyğun şəkildə qurulmalıdır”. Turizmçi qeyd edir ki, söhbət halallıqdan gedirsə, bu şərtlər bələdçiyə də, sürücüyə də aid edilməlidir, restoranlarda qiymətlər də tənzimlənməlidir: “Standart qiymətin olması halal turizmin başlanğıc amilidir. Bizim üstünlüyümüz əhalimizin müsəlman olması və məscidlərimizin çoxluğudur. Bir sözlə, potensialımız var, sadəcə, bu standartlara əməl etmək lazımdır”.

## “BU YÖNDƏ ÇALIŞMAQ BİZƏ BÖYÜK ÜSTÜNLÜK VERƏCƏK”

Turizmçi Əziz Şiriyev bildirir ki, halal turizm standartlarının tətbiq edilməsində məqsəd halal xidmətlərin effektiv idarə olunması bacarığının gücləndirilməsi, İslam qaydalarına uyğun məhsul və xidmətlərin təqdim edilməsidir. Həmçinin müştəri tələblərinin qarşılanması və bununla da müştəri məmnuniyyətinin artırılmasıdır:

“Turistlərin ölkəmizə cəlbi istiqamətində halal turizm konsepti çox önəmli faktordur. Ölkəmizə turistlərin cəlb olunması üçün biz bütün müştəri seqmentlərini nəzərə almalıyıq. Elə insanlar var ki, halal turizm konseptini seçirlər. O konsept hansı ölkədə varsa, həmin ölkəyə səyahət edirlər. Bizim ölkədə bir neçə hotel bu istiqamətdə çalışır. Amma ümumi ölkə olaraq bu yöndə çalışmaq bizə böyük üstünlük verəcək”.

### QİYMƏT STANDARTLARI OLSA...

Turizmçi Vasif Yadigarovun sözlərinə görə, hazırda mövcud vəziyyətlə əlaqədar gəlmə turizmi çox zəifləyib: “Amma vəziyyət düzələndən sonra hesab edirəm ki, qəbul edilən standartlar İslam ölkələrindən gələn müsəlman turistlərin gəlişini artırar. İlk növbədə qiymət standartları olsa, bu, qonaq artımına gətirib çıxarar. Çünki xarici qonaqlar qiymətlərə çox fikir verirlər və həmişə dünya standartları ilə müqayisə edirlər”.



Əziz Şiriyev

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
MAN
18 APREL ŞƏNBƏ 2026
www.kas

Avropada futbol mövsümü sona yaxınlaşır. Bəzi liqalarda müəyyən sualların cavabına böyük ölçüdə aydınlıq gəlsə də, ümumən intriqa qorunur və bir çox taleyüklü məsələlər son turlarda həllini tapacaq.

# HƏYƏCAN PİK HƏDDƏ



Payız-yaz sistemi ilə keçirilən futbol liqalarında həyəcan pik həddə çatıb. Mövsümün sonlarına doğru çempionluq, avrokubok və elitada mövqeyi qorumaq uğrunda mübarizə daha kəskin xarakterlidir. Bəzi liqalarda müəyyən sualların cavabına böyük ölçüdə aydınlıq gəlsə də, ümumən intriqa qorunur və bir çox taleyüklü məsələlər son turlarda həllini tapacaq.

**“TOPÇULAR”I QOVAN “ŞƏHƏRLİLƏR”**

Çempionluq mübarizəsinin ən gərgin olduğu çempionat İngiltərə Premyer Liqasıdır. Son günlərə qədər “Arsenal” çox üstün görünsə də, ötən tur “Bornmut”a yenilgi “topçular”ın vəziyyətini gərginləşdirib. 70 xalı olan Mikel Artetanın komandası son 6 oyuna 6 xallıq üstünlüklə yollanır. Lakin indi “Mançester Siti” daha yaxındır. Rəqibinin xal itkisindən maksimum yararlanan “şəhərlilər” bir oyun az keçiriblər və 6 xal geri qalırlar. “Dumanlı Albion”da son turların gərgin olacağına şübhə yoxdur, çempionun adına isə son oyunun son dəqiqələrində aydınlıq gələ bilər.

“Mançster Yunayted”lə “Aston Villa” böyük ölçüdə Çempionlar Liqası (ÇL) vəsiqəsinin öhdəsindən gəliblər. 5-ci biletin əsas müştərisi isə “Liverpul”dur. “Qırmızılar” “Çelsi” ilə 4 xallıq fərqi qorumağa çalışacaqlar, londonlular onlara çatmağın yolunu axtarırlar. Mövsümün uğursuzları “Tottenhem” və “Nyukasl”dır. Bu mövsüm ÇL-də yarışan kollektivlərdən “sağsağanlar”ın avrokubok şansı cüzi də olsa, var. London təmsilçisi isə liqada qalmağa çalışır. “Tottenhem” 30 xalla 18-cidir. Komanda “Vest Hem” və “Nottinqem”lə mübarizədə mövqeyini qorumağa çalışır. “Bernli” və “Vulverhempton” üçün isə “qatar çoxdan gedib”.

Bombardirlik yarışında “Mançester Siti”nin “qol maşını” Erlinq Holann liderdir. 22 dəfə fərqlənən norveçli “Brentford”un ulduzlaşan üzvü İqor Tyaqunu 1 top üstələyir. Qalan oyunlar bombardirlik yarışı baxımından da əhəmiyyət daşıyır.

## Çempionluğun bir addımlığında

İngiltərə Premyer Liqasından fərqli olaraq “Böyük beşliy”in digər 4 çempionatında vəziyyət daha sadədir. Almaniya Bundesliqasında “Bavariya” inamla növbəti çempionluğa gedir. Sona 5 tur qalmış 76 xalı olan münhenlilər ən yaxın izləyicisi Dortmund “Borussiya”sını 11 xal üstələyir. Artıq gələn tur çempionun adına aydınlıq gələ bilər. Komandanın əsas qol silahı Harri Keyn isə bombardirlik yarışında aşkar favoritdir. 31 dəfə fərqlənən forvard ən yaxın izləyicisi Deniz Undavı 13 qol üstələyir. “Ştutqart” və “Leypsiq” Çempionlar Liqasına əsas iddiaçılardır. “Haydenhaym”la “Volfsburq” isə böyük ehtimalla növbəti mövsüm 2-ci Bundesliqada yarışacaqlar.

Fransada PSJ-nin ənənəvi üstünlüyü hökm sürür. “Lans” Paris təmsilçisinə rəqabət təklif etsə də, hazırda 63 xalı olan Luis Enrikenin komandası ən yaxın izləyicisini 4 xal üstələyir. Paytaxt klubunun ehtiyatda bir oyunu da var. PSJ-nin növbəti dəfə Fransanın ən güclüsü olacağına şübhə edənlərin sayı çox azdır. “Lill”, “Marsel”, “Lion”, “Renn” və “Monako” isə ÇL-ə getmək uğrunda mübarizə aparırlar. “Nant”la “Mets” böyük ölçüdə elita ilə vidalaşıblar. Liqa 1-in ən sərrast oyunçuları isə hərəyə 16 qolla “Renn”dən Esteban Lepaul və “Strazburq”dan Xoakin Peniçellidir.

## İspaniyada “Barsa”, İtaliyada “İnter”

İspaniya La Liqasında “Real Madrid” və “Barselona”, adətən, son turlara qədər çempionluq mübarizəsini davam etdirsələr də, bu mövsüm mənzərə bir qədər fərqlidir. Kataloniya klubu sona 7 tur qalmış ciddi üstünlüyə malikdir. 79 xalı olan Hansi Flikin komandası əzəli rəqibini 9 xal üstələyir. Onları da PSJ və “Bavariya” kimi çempionluğun bir addımlığında hesab etmək olar. Komandasından fərqli olaraq, Kilian Mbappe fərdi mükafat qazanmağa yaxındır. “Real Madrid”in forvardı 23 qolla mövsümün ən sərrast oyunçusudur. İspaniyada ÇL mübarizəsində də cavablar aydındır. Güman ki “Vilyarreal” və “Atletiko Madrid”i növbəti mövsüm qitənin əsas klub turnirində izləyəcəyik. Aşağı pillələrdə isə vəziyyət daha gərgindir. Hətta sonuncu “Ovyedo” belə, son tura qədər mübarizəni davam etdirmək əzmindədir. Eynilə 13-cü “Rayo Valyekano” da heç nədən sığortalanmayıb.

İtaliya A Seriyasında da vəziyyət oxşardır. “İnter” sona 6 tur qalmış 75 xalla vahid liderdir və ən yaxın izləyicisi “Napoli”dən 9 addım öndədir. Burada əsas mübarizə Çempionlar Liqasına vəsiqə uğrundadır. “Milan”, “Yuventus”, “Komo” və “Roma” iddialarını davam etdirirlər. “Verona” ilə “Piza” güman ki, növbəti mövsümü B Seriyasında keçirəcəklər. “Leççe” və “Kremoneze” onlara qoşulmamaq üçün mübarizəni davam etdirirlər. A Seriyasının bombardiri “İnter”in forvardı Lautaro Martinesdir. 16 qolu olan argentinalı ən yaxın izləyicilərini 5 top üstələyir.

## Türkiyənin ən güclüsü kim olacaq?

Azərbaycanda böyük izləyici kütləsi olan Türkiyə Super Liqasında turlar keçdikcə gərginlik daha da artır. “Qalatasaray”ın xal itkilərindən maksimum istifadə etməyi bacaran “Fənərbağça” fərqi 2 xala qədər endirib. Sona 5 tur qalmış “sarı-qırmızılar” 68 xalla liderdirlər. Lakin “bülbüllər”in nəfəsini çox yaxından hiss edirlər. İki tur sonra İstanbul nəhəngləri “Qalatasaray”ın meydanında derbi oyununda üz-üzə gələcəklər. Mütəxəssislər çempionun adına məhz həmin qarşılaşmada aydınlıq gələcəyini düşünürlər. Hazırkı məqamda hər iki komandanın taleyi öz əlindədir. Qalan 5 qarşılaşmanı qazanan digər oyunların nəticəsindən asılı olmayaraq, çempionluğu əldə edəcək. Əslində 3-cü pillədəki “Trabzonspor”un da kifayət qədər şansları var. Bu mövsüm parlaq çıxış edən Qara dəniz təmsilçisi liderdən cəmi 4 xal geri qalır. Derbidə onlar hər iki komandanın büdrəməsinə ümid bəsləyəcəklər. 4-cü “Beşiktaş” isə Avropa Liqasına vəsiqəni demək olar, təmin edib. Liqada qalmaq uğrunda da gərgin mübarizə gedir. “Karagümrük”, “Eyüpspor” və “Kayserispor” elitada mövqelərini qorumağa çalışırlar.

Super Liqanın ən məhsuldar oyunçusu isə Pol Onuaçudur. “Trabzonspor”un uğurlu çıxışında əsas pay sahiblərindən olan forvard 22 qolla zirvədədir. Ona çatmaq 18 top vuran Eldor Şomurodov üçün çox çətin görünür.